# Xalq qəzeti

Xalqın qəzeti!

№ 43 (30447) 25 fevral 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Londonda COP29 müzakirəsi



Səhifə ⇨ 6

## Dostluq və qardaşlıq duyğuları

*Türkiyə Respublikasının Prezidenti*
*Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana*



**Hörmətli cənab Prezident!**
**Əziz Qardaşım!**

Əlamətdar yubileyiniz – anadan olmağınızın 70 illiyi münasibətilə öz adımdan və Azərbaycan xalqı adından Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən xüsusi məmnunluq duyuram.

Sizin ömür yolunuz Vətənə və xalqa sədaqət və ləyaqətlə xidmət nümunəsidir. Siz qardaş Türkiyənin rifahı, bugünkü inkişafı, beynəlxalq aləmdə layiqli yer tutması naminə fədakarcasına çalışan böyük şəxsiyyət, zəmanəmizin görkəmli dövlət xadimisiniz. Siz üzərinizə düşən məsul tarixi missiyanı inam və qətiyyətlə yerinə yetirərək, uzaqgörən və məqsədyönlü siyasətinizlə ölkənizi dünyanın ən aparıcı və qüdrətli dövlətləri sırasına çıxarmısınız. Türkiyənin son 20 ildə əldə etdiyi mühüm nailiyyətləri və uğurları məhz Sizin adınızla bağlıdır.

Bu gün Sizin müdrik rəhbərliyiniz altında Türkiyə Respublikası inkişafının ikinci yüzilliyinə qədəm qoyur. Bu yolda qardaş ölkəyə qarşısına qoyduğu bütün hədəflərə və məqsədlərə çatmağı, yeni müvəffəqiyyətlərə və zəfərlərə imza atmağı arzulayırıq.

**Əziz Qardaşım!**

Siz Azərbaycan xalqının da əsl dostusunuz. Azərbaycana qəlbən bağlılığınız ölkəmizin ərazi bütövlüyünə daimi dəstəyinizdə, Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsində, müttəfiqliyimizin sarsılmazlığı naminə misilsiz xidmətlərinizdə öz ifadəsini tapmışdır. Azərbaycanın haqq işi ilə bağlı hər zaman ortaya qoyduğunuz qəti və birmənalı mövqe, verdiyiniz tərəddüdsüz dəstək xalqımız tərəfindən xüsusi minnətdarlıq hissi ilə xatırlanır.

Seçkilərdən sonra ənənəyə sadiq qalaraq ilk rəsmi səfərimi dəvətiniz əsasında məhz qardaş Türkiyəyə həyata keçirməyim birliyimizin və müttəfiqliyimizin bariz göstəricisidir. Bu dəvətə və səfərim zamanı mənə və nümayəndə heyətinə göstərdiyiniz yüksək diqqət və qonaqpərvərliyə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Sizinlə səmimiyyət, qarşılıqlı anlaşma şəraitində keçən görüşümüzü, ikitərəfli münasibətlərin geniş spektri və əməkdaşlığımızın perspektivləri ətrafında apardığımız ətraflı fikir mübadiləsini yüksək qiymətləndirirəm.

Əminəm ki, ortaq tariximizdən, zəngin milli-mənəvi dəyərlərimizdən, xalqlarımızın qardaşlığından və birliyindən güc alan dünyada bənzəri olmayan münasibətlərimiz bundan sonra da birgə səylərimizlə “Bir millət, iki dövlət” prinsipinə uyğun olaraq inkişaf edəcək və möhkəmlənəcəkdir.

Həyatınızın bu sevincli günü münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, qardaş Türkiyə xalqının əmin-amanlığı və firavanlığı naminə məsul və şərəfli fəaliyyətinizdə daim yeni-yeni uğurlar və nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 fevral 2024-cü il**

## Xocalıda insanlar azərbaycanlı olduqlarına görə öldürülmüşdülər




**Tarixə dinc əhalinin kütləvi surətdə qətlə yetirilməsinin bir çox dəhşətli nümunələri qanla həkk olunub. Bu tarixlərdən həmişə qan sızır və onu törədənlərə lənət doğurur. 32 il əvvəl erməni faşistlərinin Qarabağda apardığı işğalçılıq müharibəsinin ilk dövründə qədim türk torpağı Xocalıda dinc, silahsız sakinlərə qarşı törətdiyi soyqırımı bəşər tarixinin ən dəhşətli insan qırğınlarının sırasına yazıldı.**

Erməni cəlladların insanlıq simasını itirmiş başçılarının dönə-dönə, mənhus bir öyünclə etiraf etdikləri kimi: Xocalıda uşaqlar, qadınlar, qocalar, müxtəlif yaşlı insanlar ona görə xüsusi amansızlıqla qətlə yetirilmişdilər ki, onlar məhz azərbaycanlı idilər. Onları tarixi yurdlarından birdəfəlik məhrum etmək üçün məhv etmişdilər. Quldur bandalar bununla Qarabağ əhalisinə göstərmişdilər ki, çıxıb getməsələr, aqibətləri belə olacaq. Bu barədə çox yazılıb, çox deyilib, yaxın-uzaq ölkələrin vicdanlı insanları səsisimizə səs veriblər.

Lakin beynəlxalq aləmdə hökm verənlər Xocalı qurbanlarının faciəsinə yetərli qiyməti, veriləsi cəzanı gecikdirirlər. 32 ildir ki, xalqımız bu qanlı soyqırımının mənəvi ağrısını, ağlasığmaz dəhşətlərini qəlbində daşıyır. Çünki Xocalı soyqırımının caniləri hələ də Haqq divanına çəkilməyib. Son illərdə dünyadakı kar olmuş qulaqları, yumulmuş gözləri açmaq üçün “Xocalıya ədalət!” harayımız ölkə-ölkə dolaşıb güclü əks-səda doğurur. Bu tələblə Xocalı yaramızı ovudur, erməni cəlladların cəzasını alacaqlarına inamımızı artırırıq.

**(ardı 5-ci səhifədə)**

## Yeni dövr başlandı

Səhifə ⇨ 3

## Çoxlu sualın bir cavabı!

**Fransa nə istəyir? Ermənistan vasitəsilə bölgədə möhkəmlənmək, ona revanş şansını vermək və Azərbaycanı cəzalandırmaq? Burada Rusiyadan, Türkiyədən, İrandan da böyük söz sahibinə çevrilmək? Yəni, son məqsəd budurmu? Parisin üzdə hayları silahlandırmaq ssenarisinin arxasında “uzaqmənzilli” hansı niyyətinin gizləndiyini ancaq ehtimal edə bilərik. Onda gəlin reallığa daha yaxın hesab olunan ehtimal və fərziyyələrə müraciət edək.**



Əslində, Fransanın Ermənistan üzərindən Cənubi Qafqazda düzənlədiyi “oyun” özündə risk amilini daşıyır. Parisin İrəvanla geosiyasi, hərbi-texniki baxımdan bu dərəcədə yaxından əməkdaşlığı təkcə bölgədə maraq və mövqelərinə zərbə vurduğu Rusiyanı, həmçinin Türkiyəni deyil, hətta “tarixi müttəfiqi” sayılan İranı da qıcıqlandırmağa başlayıb.

Afrika və Asiya hərbi-diplomatik platformalarında uğursuzluğa düçar olmuş Emmanuel Makron hakimiyyəti özünü reabilitasiya üçün sonuncu “platsdarm” kimi seçdiyi Cənubi Qafqazda üzləşə biləcəyi acı aqibəti göz önünə alıbmı? Yelisey sarayının müvəqqəti sahibinin Ermənistana bunca qucaq açması yalnız qarşıdakı seçkilərdə milyona yaxın hay elektoratın rəğbətini qazanmaq məqsədini daşıyırmı? Əlbəttə, burada Parisin əsas hədəfi Azərbaycana təzyiq deyil, daha çox Fransa–Rusiya və Fransa–Türkiyə münasibətləridir, desək, yanılmarıq.

Yerli ekspertlərin bir çoxu belə hesab edirlər ki, strateji nöqteyi-nəzərdən Azərbaycan rəsmi Paris üçün arxa plandadır. Ön planda Rusiya və Türkiyədir. Çünki, Fransanı Afrikadan vurub çıxaran, onu ucuz xammaldan məhrum edən, yerli xalqları ona qarşı qaldıran məhz Rusiya oldu. Revanş barədə düşünən Makron bunun cavabını Moskvaya MDB məkanında verməyə çalışır. Bunu həyata keçirmək üçün bölgənin ən münasib ölkəsi Ermənistandır.

İndiki məqamda Paris Ermənistanda həm siyasi, həm də hərbi mövcudluğunu gücləndirməklə Rusiyaya və Türkiyəyə qarşı mövqeyini sərgiləyir. Bir anlıq təsəvvür edək ki, Fransa hər müstəvidə Ermənistanda yerləşib. Belə olan təqdirdə, o, Azərbaycan–Türkiyə birliyinə təsir imkanı qazanır, eləcə də ayrıca Türk dünyasına qarşı fəaliyyət meydanı əldə etmiş olur. Və bütün bunların fövqündə Fransanın Türk birliyinə, Turana qarşı hərəkətə keçəcəyini indidən söyləmək olar. Bu zaman hətta Türkiyə–Azərbaycan strateji müttəfiqliyinin özünün təhlükə ilə üzləşə biləcəyini istisna etmirik. Əlbəttə, bunlar ehtimal və fərziyyələrdir, Parisin belə genişmiqyaslı “əməliyyat planı”nı reallaşdıra biləcəyi də sual altındadır.

**(ardı 4-cü səhifədə)**

## Demokratiyanın tələbi, yoxsa Qərbin mənəvi silahı?




Səhifə ⇨ 11

## Paşinyan “qırmızı xətləri” keçir

Səhifə ⇨ 6

## Qarabağ Universiteti – milli təhsilimizə Zəfər töhfəsi

Səhifə ⇨ 10

## İqtisadi siyasət – tərəqqinin lokomotivi



Səhifə ⇨ 7

# Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabaha

**Əlahəzrət,**

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan-Küveyt dövlətlərarası əlaqələrinin daha da inkişafı, əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Küveyt xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 fevral 2024-cü il**

# A.A.Əli Zadənin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda elmin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Akif Ağa Mehti oğlu Əli Zadə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 fevral 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm İlham Heydər oğlu.**

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Prezident seçkiləri bütün mövcud ehtiyatları səfərbər edərək 30 ildən sonra Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olan, ölkənin sabit və uğurlu inkişafı üçün zəruri şəraiti yaradan əsl lider kimi Sizə Azərbaycan xalqının yekdil dəstəyini əyani şəkildə nümayiş etdirdi.

Prezident seçkiləri zamanı Bakıya səfər etmək şərəfinə nail oldum və paytaxt sakinlərinin sevinclə, yüksək əhvali-ruhiyyə ilə və Azərbaycanın gələcək uğurlarına inamla səsvermədə iştirak etmələrinə, dövlətin möhkəmlənməsi, insanların rifahı üçün göstərdiyiniz xidmətlərə görə Sizə səmimi minnətdarlıqlarını bildirmələrinə şəxsən şahid oldum.

Sizə və gözəl ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq, Azərbaycanın daha da inkişafı, ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsi, Gürcüstan ilə strateji, qardaşlıq münasibətlərinin dərinləşməsi üzrə fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***David APTSİAURİ,***
***Gürcüstanın Ticarət-Sənaye Palatasının baş direktoru, fövqəladə və səlahiyyətli səfir, professor***

# Müdafiə nazirliyində xidməti müşavirə



**General-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Müdafiə Nazirliyində növbəti xidməti müşavirə keçirilib.**

Müşavirədə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

General-polkovnik Z.Həsənov Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunda hərbi təhsil, silahlanma, təminat-təchizat və digər istiqamətlərdə aparılan uğurlu islahatların gedişatından danışıb və bu işlərin bundan sonra da mərhələli şəkildə davam etdirilməsinin vacibliyini qeyd edib.

Müşavirədə Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti, qoşun xidmətinin təşkili və aparılması geniş təhlil edilib, məruzələr dinlənilib.

2024-cü ildə Azərbaycanda, Türkiyədə və digər ölkələrdə keçirilməsi planlaşdırılan birgə təlimlərin şəxsi heyətin təcrübə mübadiləsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi, qoşunların döyüş hazırlığının daha da yüksəldilməsinə müsbət təsir edəcəyi xüsusi vurğulanıb.

Sonda bölmələrin döyüş hazırlığının və şəxsi heyətin fərdi peşəkarlığının daha da artırılmasına xüsusi diqqətin yetirilməsi, eləcə də 2024-cü ildə qarşıda duran digər vəzifələrin yüksək keyfiyyətlə icrası ilə bağlı aidiyyəti üzrə vəzifəli şəxslərə göstərişlər verilib.

***XQ***

# Kəmaləddin Heydərov Masallıda vətəndaşları qəbul edib

**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov fevralın 24-də Masallıda Heydər Əliyev Mərkəzinin binasında vətəndaşlarla görüşüb.**



Nazir tərəfindən qəbul edilən Masallı, Yardımlı və Lerik rayonları sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

***XQ***

# Azərbaycan XİN Estoniyanı təbrik edib

**Azərbaycan Xarici İşlər Nazirliyi Estoniyanı Milli Gün münasibətilə təbrik edib. Bu barədə qurumun "X" hesabında yazılıb.**



"Estoniyanın Milli Günü münasibətilə təbrik edirik! Milli bayramınız mübarək!" - XİN-in təbrikində bildirilib.

***XQ***

# Reza Deqati: Xocalı qırğını soyqırımı kimi bütün dünyada tanınmalıdır

**"32 il əvvəl Xocalı soyqırımı ilə bağlı fotoları çəkdiyim günlər məndə dərin iz buraxıb. Mən hadisələr zamanı ancaq faciənin dünyaya çatdırılmasını düşünürdüm. Azərbaycan xalqının haqq səsini dünyaya çatdırmaq mənim ən böyük niyyətim olub".**



Dünyaca tanınmış fotoqraf Reza Deqati mediaya bu açıqlamasının davamında bildirib ki, "13" bədii-sənədli filmi Xocalı həqiqətlərinin dünyaya çatdırılması üçün ciddi önəm kəsb edir: "Biz fotoqraflar, jurnalistlər, incəsənət nümayəndələri əlimizdən gələni etməliyik. Bu gün Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində böyük işlər görülür. Bu faciə soyqırımı kimi bütün dünyada tanınmalı və canilər cəzalarını almalıdırlar".

***XQ***

# Ermənistanın silahlı təxribatları davam edir

**Azərbaycan Müdafiə Nazirliyi fevralın 24-ü saat 12:45-də Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətindəki mövqelərinin atıcı silahlardan atəşə tutulması barədə rəsmi məlumat yayıb.**

Qeyd olunub ki, atəşin bu koordinatlarda (40° 05' 04" N; 45° 52' 28" E coğrafi koordinatlarda) yerləşən Ermənistan silahlı qüvvələrinin postundan açıldığı dəqiqliklə müvafiq müşahidə vasitələri ilə təsbit edilib:

"Bundan bir müddət sonra Ermənistanın Müdafiə Nazirliyi törətdiyi silahlı təxribatı ört-basdır etmək məqsədilə, guya, atəşin bölmələrimiz tərəfindən açılması barədə məlumat yaymış və bu dezinformasiyanı inandırıcı etmək məqsədilə bölmələrimizin mövqelərinin koordinatlarını da qeyd etmişdir.

Bildiririk ki, həmin istiqamətdən bölmələrimiz tərəfindən atəş açılmamış və şərti sərhəddə sabitliyin davamlılığını təmin etmək üçün qarşı tərəfin təxribatı ilə bağlı cavab tədbiri görülməyib".

***XQ***

# Polşada ikinci Azərbaycan evi




**Polşa Respublikasının Krakov şəhərində Azərbaycan evinin açılış mərasimi keçirilib. Diaspora İş üzrə Dövlət Komitəsindən bildirilib ki, əvvəlcə Azərbaycanın və Polşanın dövlət himnləri səsləndirilib, Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Açılış mərasimində Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova, eləcə də diplomatik korpusun, Azərbaycan diasporunun, yerli ictimaiyyətin və müxtəlif icmaların nümayəndələri iştirak ediblər.

Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova çıxışında Azərbaycan evinin Krakov və ətraf şəhərlərdə yaşayan həmvətənlərimizin bir araya gəlməsi, milli maraqlar uğrunda birgə fəaliyyət göstərməsi və ölkəmizin mədəniyyətinin təbliği baxımından uğurlu məkan olacağına, Polşa azərbaycanlılarının vahid platforma ətrafında birləşməsində böyük rol oynayacağına inamını ifadə edib.

Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Polşanın paytaxtı Varşavada 2019-cu ildən fəaliyyət göstərən Azərbaycan evinin soydaşlarımızın təşkilatlanmasında, Vətəndən uzaqda böyüyən azərbaycanlı uşaqlara ana dilinin, Azərbaycan tarixinin aşılanmasında mühüm rol oynadığını diqqətə çatdırıb. Komitə sədri Polşada sayca ikinci Azərbaycan evinin açılması münasibətilə soydaşlarımızı təbrik edib və bunun dövlətimizin soydaşlarımıza qayğısının təzahürü olduğunu bildirib. Komitə sədri Prezident İlham Əliyevin tövsiyəsinə uyğun olaraq xaricdə yaşayan azərbaycanlıların daha səmərəli təşkilatlanması üçün hər il dünyanın dörd bir yanında Azərbaycan evlərinin, həftəsonu məktəblərinin açıldığını qeyd edib və tədbirdə iştirak edən soydaşlarımızı istər yaşadıqları ölkənin ictimai həyatına inteqrasiya, istərsə də Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması məsələsində daha aktiv olmağa çağırıb. Azərbaycan evlərinin, bu evlərin nəzdində fəaliyyət göstərən ana dili məktəblərinin fəaliyyəti, azərbaycanlılara göstərilən pulsuz hüquqi yardım təşəbbüsü yüksək qiymətləndirilib.

***XQ***

# Keniya baş prokurorunun səfəri başa çatıb



**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Keniya Respublikasının Baş prokuroru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub.**

Keniyalı prokurorlar ölkəmizin prokurorluq orqanlarının, o cümlədən Baş Prokurorluğun yeni inzibati binasında yerləşən struktur qurumlarının, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Bakı Şəhər Prokurorluğunun fəaliyyəti ilə tanış olublar.

Məhkəmə orqanlarının fəaliyyəti ilə tanışlıq məqsədilə nümayəndə heyəti Yasamal Rayon Məhkəməsində olub. 7 saylı "ASAN xidmət"in fəaliyyəti ilə tanışlıq isə qonaqlarda yüksək təəssürat yaradıb. Bundan başqa, qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyəti əks olunan stendlərə baxış keçirib, onlara mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilib.

Keniyanın Baş prokuroru Renson İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri başa çatıb.

***XQ***



# Yeni dövr başlandı

## Ali məqsəd daha güclü Azərbaycandır

**“Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm.”**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

1. Masamın üzərində olduqca mühüm bir sənəd var: orada ifadə edilən məna təbii bir cazibə qüvvəsinin təsiri ilə yaşadığımız tarixi günlərin, daha doğrusu, dövrümüzün simasını göz önünə gətirir, orada səslənən faktlar, müddəalar və yanaşmalar sanki zamanın nəbzi kimi döyünür...

Bu sənəd, həqiqətən də, taleyüklüdür, yəni ən yüksək dəyərə, dövlət, xalq, millət miqyaslı aktuallığa malikdir. Çünki orada irəlidəki yeddi illik zaman aralığında gediləcək tarixi yolun, heç şübhəsiz ki, mühüm nailiyyətlərlə əbədiləşəcəyinə bəribaşdan əmin olduğumuz sülh, sabitlik, quruculuq, bir sözlə, böyük inkişaf və tərəqqi magistralının konturları aydın şəkildə təqdim edilmişdir.

Əlbəttə, söhbət ölkəmizin ən böyük siyasi marafonunda qələbə çalaraq, yenidən dövlət başçısı seçilən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 fevral 2024-cü ildə növbədənkənar seçkidən bir həftə sonra düzənlənən andiçmə mərasimindəki nitqinin mətnindən gedir. Məhz bu nitqdə müstəqil Azərbaycanın indiki günlərimizə qədər keçib gəldiyi enişli-yoxuşlu, kifayət qədər mürəkkəb, eyni zamanda, ictimai-siyasi, sosial-iqtisadi, mədəni-mənəvi həyatımızda mühüm rol oynamış nailiyyətlər ilə zəngin 30 illik bir dövrünə dolğun şəkildə nəzər yetirilir. Ən əsası isə önümüzdə dayanan strateji, eləcə də, bu və digər ən mühüm vəzifələr, məqsədlər ifadə olunur, zamanın yeni çağırışları dilə gətirilir.

Mən 2024-cü il növbədənkənar prezident seçkilərində BMT statuslu, beynəlxalq səviyyədə fəaliyyət göstərən, heç bir siyasi mövqeyi olmayan bir təşkilatın rəhbəri olaraq müşahidəçilik missiyamı yerinə yetirdim. Ancaq bu yazını isə bir azərbaycanlı, 30 il bu ağrı-acını yaşamış, həyatının hər anında hiss etmiş bir qarabağlı və zəngəzurlu kimi yazıram.

Yəqin, razılaşırsınız, ən azı son üç-dörd ildə, hətta, demək olar, ekstremal ictimai-siyasi şəraitdə İlham Əliyev nitqləri, çıxışları, dövlət başçısının beynəlxalq və yerli mediaya heç bir yazılı mətnə istinad etmədən verdiyi ekspromt müsahibələri, xalqa müraciətləri məntiqli, kəskin, təsirli rəsmi nitqin ən yaxşı nümunələri, praktik natiqlik örnəkləridir (həm də onların bir çoxu doğma dilimizlə yanaşı, dünyanın ən geniş yayılmış əcnəbi dillərində, böyük siyasətlərin öz dilində, yəni ingilis və rus dillərində olmuşdu.

Tarixən qələm və qılıncın, söz və gücün vəhdəti barədə çox deyilib. Yəqin, hər kəs xatırlayır, elə də uzaq tarix deyil, Ali Baş Komandanın rəhbərliyi ilə aparılan uğurlu cəbhə əməliyyatları ilə yanaşı, o, qılınc qədər kəsərli informasiya savaşında diplomatik təcrübənin misilsiz örnəyini yaratmışdı. Dediyim kimi, həmin tarixi çıxışlar çox kəsərli və təsirli idi, çünki onlar həqiqətə, doğru olana söykənirdi. Hər bir cümlə səfərbərlik gücünə malik idi. İlham Əliyev danışarkən xalqın ruhu oyanırdı. O, nitqləri ilə xalqına, hər birimizə mərdliyi, heç bir xarici qüvvədən qorxmamağı təlqin edirdi. Həmin çıxışların əlahiddə dəyəri onda idi ki, onlar ədalətə əsaslanır, xalqın haqqını tələb edirdi!

Həm fövqəladə əhəmiyyət daşıdığına görə, eyni zamanda növbədənkənar seçki ilə ilgili bölüşəcəyim mülahizələrin xronoloji ardıcıllığını qorumaq zərurətini nəzərə alaraq, hələ də zəngin təəssüratının təsiri altında olduğumuz siyasi marafonda ədalətli, aşkar, dürüst və həm də bütün Vətənimizin dəstəyi, ümumxalq coşqusu ilə möhtəşəm qələbə qazanan İlham Əliyevin andiçmə mərasimindəki, həqiqətən də, parlaq nitqi barədə sözümüzün davamında ətraflı danışacağıq.

2. Masamın üzərində dünya çapında tanınan bir təşkilatın timsalında növbədənkənar prezident seçkiləri prosesinin müşahidəçilik missiyası ilə əlaqədar ayrı bir sənəd də var. Hadisələrin xronologiyası baxımından öncə mən Beynəlxalq Avrasiya Mətbuat Fondunun 7 fevral 2024-cü ildə keçirilmiş Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərində müşahidəçilik fəaliyyətinə dair hesabatına əsaslanmaqla bir sıra mülahizələrimi bildirmək niyyətindəyəm.

Verilən rəsmi məlumatlardan bəlli olur ki, növbədənkənar seçki marafonunu (125 dairə seçki kommisiyası, 6319 məntəqə seçki komissiyası üzrə) izləmək üçün 65 mindən çox müşahidəçi qeydə alınmış, onların 800-dən çoxu beynəlxalq müşahidəçi olmuşdur. Müşahidə və monitorinqlər aparmaq üçün QHT-lərin 3 koalisiyasına 50 nəfərlik müşahidəçi komandası ilə qoşulan, yaranmış tarixi-siyasi şəraitdə vətəndaş cəmiyyətinin inkişafına dəstək vermək amalına əsaslanan Beynəlxalq Avrasiya Mətbuat Fondu seçki prosesindəki uğurlu missiyası ilə məmnunluq duya bilər. Bizim bu razılıq hissimizi həqiqətin ifadəsi kimi qəbul etməyinizi istərdik. Təsəvvür edin, ölkə üzrə təqribən 6,5 milyona yaxın seçicinin iştirakı gözlənilən tarixi prosesdə BAMF, baş ofis Bakı şəhərində olmaqla Tərtər, Füzuli və Beyləqanda obyektiv və dolğun müşahidə aparmaq məqsədi ilə regional qərargahlar yaratmışdı. Komandamız 22 fərqli dairədə 38 məntəqənin açılışında iştirak etmiş, üzvlərimizdən on nəfər Xankəndi, Şuşa, Laçın, Xocalı, Ağdərə, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarındakı 7 dairənin 19 məntəqəsində, eyni zamanda, Bakı şəhərində intensiv müşahidələr aparmışdır. Ümumiyyətlə, rəhbəri olduğum fondun müşahidəçilər heyəti 32 dairə olmaqla, 225 məntəqədə növbədənkənar prezident seçkilərini müşahidə etmişdir.

Seçki günü mən özüm də Xankəndi, Şuşa, Xocalı, Ağdam, Füzuli və Tərtər rayonlarında müşahidəçilik missiyamı yerinə yetirdim. Bu tarixi gündə, ümumilikdə 8 məntəqədə, seçki prosesini izləmək şansım oldu. Əvvəlki seçkilərdən fərqli olaraq budəfəki seçkilərdə ən qürurverici an insanlarımızın aktivliyi idi. Sanki, xalq bu tarixi prosesin bir parçası olmağı özünə borc bilirdi. Sanki, bu tarixi missiya və qarşıya qoyulan vəzifə idi. Bu yanaşma eynilə, cənab Prezidentin xalqa göstərdiyi diqqət və onlara qazandırdığı qalib Azərbaycan məfhumunun sinoniminə bənzəyirdi. Gənc və yaşlı nəsil, xanımlar və bəylər, fiziki məhdudiyyətli vətəndaşlar, şəhid anaları... Onların hər birini bu seçkidə görmək mümkün idi.

Rəqəmləri göstərib 7 fevral 2024-cü il tarixdəki fəaliyyətimizin statistikasını verməkdə məqsədim seçkiyə hazırlıq, seçkinin keçirilməsi və yekunları haqqında BMT-nin İqtisadi Sosial Şurasının QHT bölməsinin əsas məşvərətçi statuslu üzvü, müstəqil bir təşkilatın – Beynəlxalq Avrasiya Mətbuat Fondunun dəyərləndirməsinin kifayət qədər ciddi bir rəy olduğunu diqqətə çatdırmaqdır. Bu rəy isə ondan ibarətdir ki, sözügedən bəlli təqvimdə doğma Vətənimizin, Azərbaycanın tarixində misli olmayan seçki reallaşmış, xalqımız yeni, daha məsuliyyətli ictimai-siyasi, tarixi mərhələyə keçid etmişdir.

Yeri gəlmişkən, şəxsən mən bir vətəndaş olaraq Azərbaycan öz müstəqilliyinə qovuşduqdan bugünədək 1990-cı illərin lap əvvəllərinə təsadüf edən iki seçki də hesaba alınarsa, 1993-cü ildən bu yana bütün prezident seçkilərinə qatılmış, xalqımızın həyatında əlahiddə önəm daşıyan mühüm siyasi prosesdən kənarda qalmamışam. 1993 və 1998-ci illərdə birmənalı olaraq ümummilli lider Heydər Əliyevi, sonrakı dönəmlərdə isə beş prezident seçkisində İlham Əliyevi ən layiqli namizəd hesab etmiş onlara, əslində isə Azərbaycanın dünəninə, bu gününə və gələcəyinə səs vermişəm.

İnkişafın, yüksəlişin bütün parametrləri fərqli mənbələrdən başlanğıc götürərək qüdrətli siyasi liderin – İlham Əliyevin simasında vahid nöqtədə birləşmiş, ümumən, ölkədə keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Bu keyfiyyət faktorunu bütün seqmentlərə nəzərən izləmək mümkündür. Bu gün Azərbaycanda layiqli dövlətlərə xas siyasi, iqtisadi, intellektual, mədəni platforma mövcuddur. Azərbaycan insanı 30 il bundan əvvəlki fərd deyil, o hər cəhətdən inkişaf etmiş bir vətəndaş cəmiyyətinin üzvüdür. Xüsusilə, düşünülmüş daxili iqtisadi siyasət ölkədə insanların rifahının yüksəlməsinə təməl olması göz önündədir. Əslində, Azərbaycan dünyanın, eləcə də Qafqazın sosial priorietli ölkəsidir. Bunu təsdiqləmək üçün uzun-uzadı araşdırmalar aparmağa ehtiyac yoxdur; əhalinin maddi rifah halının mövcud durumu, ölkənin, demək olar, hər bir ünvanında, yəni başdan-başa Azərbaycanda reallaşan sosial-infrastruktur layihələrinin yaratdığı mənzərəyə nəzər salmaq yetərlidir (Yeni tikilən səhiyyə, təhsil, mədəniyyət müəssisələrini, aqrar-sənaye parklarını, sənaye komplekslərini, yol-körpü qovşaqlarını, sürətlə və keyfiyyətlə yeniləşib ecazkar bir gözəlliyə qovuşan Bakı şəhərini, böyük bir səriştə ilə aparılan, modernləşmiş ordu quruculuğunu ... və s. yada salaq).

Hər bir uğur düzgün idarə olunmuş əməyə, iş və əməl birliyinə, 20 ildən çox bir müddət ərzində Prezident İlham Əliyevin qətiyyətli qərar və göstərişlərinə, idarəçilik bacarığına, Vətən sevgisinə, bütün bunlarla bərabər ulu öndər Heydər Əliyevin siyasi idarəçilik irsinə sadiqliyinə əsaslanır.

İstər növbədənkənar seçki öncəsi, istər seçkilər günü, istərsə də seçkidən sonra bu siyasi kampaniyanı növbəti səsvermələrdən əsaslı şəkildə fərqləndirən ekspertlər, təhlilçilər, kütləvi informasiya vasitələrinin təmsilçiləri və sıravi vətəndaşlar heç də səhv etmirlər. Birmənalı olaraq hər kəs bildirir ki, 7 fevral 2024-cü il prezidentliyə növbədənkənar seçkini fərqləndirən məziyyətlərdən biri də onun Azərbaycan Respublikasının istinasız olaraq bütün ərazilərini – şəhər, qəsəbə və kəndlərini əhatə etməsi ilə bağlıdır. Belə bir göstərici ümumxalq nailiyyətidir. 2020-ci ilin sentyabr-noyabr, 44 günlük Vətən müharibəsinin Zəfər gününə, 2023-cü ilin sentyabr ayında həyata keçirilən lokal xarakterli antiterror tədbirlərinə qədər kimin ağlına gələrdi ki, külli-Qarabağ, Şərqi Zəngəzur son qarışına qədər 30 il mənəm-mənəm deyən düşmənin sonuncu quldurundan qədər təmizlənəncək, Ermənistanın silahlı qüvvələrinin, ekstremist, seperatçı ünsürlərin başı “dəmir yumruq”la aziləcək. Azərbaycan vətəndaşları, qaçqın-köçkün bacı-qardaşlar sürətlə qurulub dirçəldilən dədə-baba torpaqlarına dönəcək və qalib bir ölkənin vətəndaşları kimi seçki məntəqəsinə gəlib istədikləri namizədlərə səs verəcəklər. Belə bir zəfər platformasının, qalibiyyət himninin müəllifi Azərbaycan xalqı, Milli Ordumuz və müzəffər Ali Baş Komandan İlham Əliyev idi. İnsanlar onun apardığı hərtərəfli və uğurlu siyasəti dəstəkləyərək, həm də məhz qürurlu qələbə həqiqətini dəyərləndirərək, sanki vəfa borcunu yerinə yetirərək seçki məntəqələrinə axın edirdilər. Məhz yuxarıda qeyd olunan 3 amilin (Xalq, Ordu, Rəhbər) ahəngdar qovşağının yekununda azadlığına qovuşan Qarabağda sülhün, asayişin, fundamental quruculuğun, doğma torpaqlarda onilliklər boyunca gözlənilən məskunlaşmanın sarsılmaz təməli qoyulmuşdu.

Azərbaycan Respublikasının Konstitusiyasına, Seçki Məcəlləsinə istinadən prezident seçkiləri prosesinə qoşulan BAMF 35 ilə yaxındır ki, Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı, dövlətçiliyin, demokratik dəyərlərin qorunması, didərgin düşən insanların qayğı və çətinliklərinin önlənməsi, Qarabağda 30 ilə yaxın bir müddətdə mövcud olmuş katastrofik reallığın, acı həqiqətlərin beynəlxalq ictimaiyyətə, dünya mediasına çatdırılması kimi bir çox vacib məsələlər uğrunda çalışmalarda ön sırada yer alan təşkilatlardan biridir. Təbii ki, biz ölkəmizin həyatında baş verən ümumxalq əhəmiyyətli prosesə aktiv, aydın və vahid proqramla qoşulduq. Qısaca olaraq deyə bilərəm ki, komandamızın mövcud siyasi-ictimai vəziyyəti öncədən təhlil etməsi, seçkiöncəsi hazırlıqlar, prezidentliyə namizədlərlə bağlı zəruri bilgilərin nəzərdən keçirilməsi, təşviqat kampaniyası, yerli və beynəlxalq məlumatların ümumiləşdirilməsi missiyamızı fəal və konstruktiv icra etməyimizə imkan verdi.

Azlığından və ya çoxluğundan asılı olmayaraq sayılan hər bir səsə rəğbətlə yanaşmaq lazımdır. Sadə bir misal; qalib namizəddən sonra Zahid Oruca verilən 2,17 faiz, Fazil Qəzənfəroğluya verilən 2 faizə yaxın səs minlərlə seçicinin səsi deməkdir. Bütün hallarda isə İlham Əliyevin mütləq qələbəsi – 92,8 faiz təşkil edən yekun rəqəm ədalətin, demokratiyanın, xalqın inamının və layiqli namizədə bəslənən etibarın təntənəsi, 20 ildən çox bir müddətdə ölkəyə rəhbərlik edən şəxsin yorulmaz əməyinə, qətiyyətli addımlarına, dünyada örnək olan Azərbaycan reallığının yaradıcısına verilən qiymətdir. Biz təşkilatın növbədənkənar prezident seçkilərinə aid yekun hesabatda böyük məmnunluqla indiyə qədər görünməmiş izdihamlı seçici fəallığını qeyd etdik. Göstərdik ki, seçki prosesi şəffaf, obyektiv şəkildə keçirilmiş, səsvermədə layiqli iştirak üçün hər kəsə dolğun şərait yaradılmışdır. Seçki prosesində seçkilərin nəticələrinə təsir edə bilən heç bir qayda pozuntusu aşkarlanmayıb. Müşahidəçilərimiz tərəfindən, ümumən, Mərkəzi Seçki Komissiyasının fəaliyyəti, seçki hazırlığı və təşkilatçılığı yüksək qiymətləndilmişdir.

3. Yenidən prezident seçilən İlham Əliyev 2024-cü il fevralın 14-də Azərbaycan Respublikasının Milli Məclisində geniş və əhatəli, məzmunlu, cəmiyyəti maraqlandıran bütün təməl sualların cəmini cavablandıran, yekunları və perspektivləri əks etdirən nitq söylədi. Həmişə olduğu kimi, Prezidentin proqram mahiyyətli nitqi həm daxili, həm də xarici auditoriyanın diqqətini ciddi şəkildə cəlb etdi. Yeni mərhələdə də “Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyünün qorunması üçün” var gücünü sərf edəcəyini bəyan edən İlham Əliyev 2003-cü ildə verdiyi bütün vədlərin yerinə yetirildiyini, qazanılmış nailiyyətlərin mənbəyinin Azərbaycan xalqı, xalqın öz rəhbərinə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığı olduğunu bildirir: “Biz böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik,” – deyir.

Bəli, məhz elə bu fundamental səbəbdən 2020-ci il sentyabrın 27-də alovlanan 44 günlük Vətən müharibəsinin sonunda Azərbaycanın ərazi bütövlüyü bərpa edildi, dövlət başçısının dediyi kimi, 300-dən çox şəhər, kənd azadlığına qovuşdu. “Ancaq müharibə olmaya da bilərdi”, “əgər Ermənistan və onun xaricdəki havadarları beynəlxalq hüquqa əməl etsəydilər”, “BMT-nin dörd qətnaməsini qulaqardına vurmasaydılar”. Halbuki Azərbaycan münaqişənin həllinin bütün etaplarında danışıqlara sadiq idi. Qələbəmizi şərtləndirən başlıca amillərdən biri Azərbaycan Ordusunun döyüş hazırlığı, qəhrəmanlıq ruhu ilə bağlıdır. Elə bu səbəbə görə ordumuz müharibənin bütün əməliyyatları zamanı yalnız irəli getmişdi. İşğalçıların özlərinin etirafına görə, 44 günlük müharibədə erməni ordusundan 12 mindən çox hərbçi fərarilik etmişdi. Halbuki Azərbaycan tərəfindən bir nəfər də olsun döyüş meydanını tərk edib qaçmamışdır.

Hamının ortaq olduğu yekdil rəyi Prezident İlham Əliyev bir daha xatırladır: “Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir.”

İlham Əliyev seçkiyə Xankəndidə qatıldı. Dediyi kimi, o, ölkənin hər bir yerində səs verə bilərdi, lakin tam ədalətli, düzgün olaraq buranı seçdi. Yeri gəlmişkən tale elə gətirdi ki, mənim də bir vətəndaş kimi Xankəndidə səs vermək şansım yarandı. Həmin an keçirdiyim hissləri sözlə ifadə etmək çox çətindir. Ömrünün yarıdan çoxunu Vətən həsrəti ilə keçirən birisi üçün bu hisslər yəqin ki, yaşadığı həyatın ən yaddaqalan anlarından biri idi. Mən əzab-əziyyətlər görən, öz qanından olanları gözü qarşısında itirən, köklərinə bağlı ocağı söndürülən bir nəslin nümayəndəsi kimi uzun illər bu anın yükünü özümdə daşıyacağam. Qalib Azərbaycanın gələcəyinə Xankəndidə, bəli bizim azad Xankəndidə səsimlə səs olmağa çalışdım. O yerdə ki, tarixin bəlli illərində bu məskəni Qarabağ xanlığının banisi Pənahəli xan salmışdı. O yerdə ki, 1980-ci illərdən antiterror əməliyyatına qədər erməni quldurları buranı “şeytan yuvası”na çevirmişdilər. Qarabağı Azərbaycandan ayırmaq xülyası oradan “pərvazlanmışdı”.

Prezidentin nitqindən indi iqtibas edəcəyim cümlələr mərasimin iştirakçıları tərəfindən gur alqışlarla qarşılanır, o iki cümlə belədir: “Orada verdiyim səs, o qutuya atdığım bülleten sadəcə olaraq bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan mismar idi”.

Prezident yeni dövrün başlandığını elan edir. O əmindir ki, yeni mərhələnin böyük nailiyyətləri olacaq. Dəqiq hədəf, ali məqsəd güclü Azərbaycandır. Çünki ədalət tərəzisi əyilən dünya əvvəl-axır güclə hesablaşır. Lap hesablaşmasa belə, güc gücdür, çəkisini itirmir. Söhbət əzələ nümayişindən deyil, xalqın, millətin, dövlətin halal, qanuni haqqının təminatlı qorunmasından gedir...

“Ona görə də, – cənab Prezident bildirir, – növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri ordumuzun, Silahlı Qüvvələrimizin gücləndirilməsi olacaq. Bütün hallarda Azərbaycanın dövlətinin siyasəti beynəlxalq hüquqa əsaslanacaq. Təsadüfi deyil ki, dövlət büdcəmizin ən böyük xərcləri hərbi xərclərdir, bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzurun bərpası da vəsaitlərin sərfi baxımından prioritetdir.”

İlham Əliyev, faktiki surətdə Üçüncü dünya müharibəsinə çox yaxın olduğumuz bir şəraitdə güclü hərbi sənaye kompleksinin yaradılması, sərhədlərimizin etibarlı şəkildə qorunması (...“Sərhədlərimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə keçə bilməsin”) zamanın çağırışı, müasir dövrün tələbidir. “Ölkə daxilində risklər yoxdur, bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır,” – deyə Prezident açıq şəkildə bəyan edir. Yalnız milli birlik, milli dəyərlərin təsiri ilə yetişdirilən müasir gənclik, həmrəylik, vətəndaş cəmiyyətinin inkişafı, güvənli şəkildə qorunan sərhədlərimiz yeni uğurların təminatçısı ola bilər.

Bu gün Qarabağ və Şərqi Zəngəzur nəhəng quruculuq, dirçəliş meydanıdır. Təəssüf ki, çox insan mina qurbanına çevrilib, həyatını, yaxud sağlamlığını itirənlər var. Bununla belə ərazilər mənfur düşmənin yeraltı xəyanətindən xilas edilir; 120 min hektara yaxın ərazi təmizlənib. Əhalinin təhlükəsizliyi təmin olunduqca, həyat şəraiti yaradıldıqca azad edilmiş yurdlara əbədi qayıdış sürətlənir. İndiyəcən 5400 keçmiş köçkün beş yaşayış məntəqəsinə göndərilib. İlin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min insan yerləşdiriləcək. Böyük Qayıdış proqramının birinci mərhələsində - 2026-cı ildə dədə-baba yurdlarına dönənlərin sayı 140 min nəfərə çatacaq. Hazırda erməni vandallarının xarabazara çevirdiyi torpaqların yarasına məlhəm qoyulur. Orada bütün sosial infrastruktur əsaslı şəkildə yenidən qurulur: xəstəxanalar, məktəblər, idman obyektləri, yollar, 130-dan çox tunel və körpü inşa edilir. İqtisadiyyatın hərtərəfli inkişafı, yoxsulluğun minimum həddə endirilməsi, xarici iqtisadi və beynəlxalq münasibətlər, insanların sosial rifah halının yaxşılaşdırılması, iş yerlərinin açılması, gəlirlərin artımı, şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsi kimi vacib həyati problemlərə toxunan, perspektivləri, həll yollarını göstərən Prezident İlham Əliyevin çıxışının son cümlələrini həyəcansız oxumaq olmur: “Biz bu gün Ağdamdayıq, Füzulidəyik Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik. Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək!”

Fəxr hissi ilə qeyd etmək istərdim ki, qurucusu və rəhbəri olduğum Beynəlxalq Avrasiya Mətbuat Fondu yarandığı ilk gündən Qarabağ və onun ağır taleyinə həmdəm olmağı özünə ali missiya olaraq seçmiş və bu yolda inamlı addımlar atmışdır. Biz Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) əsas və dayanıqlı QHT partnyoru olaraq son 20 il ərzində 12,500 hektardan artıq ərazini mina və partlamamış hərbi sursatlardan təmizləmiş və xalqımızın istifadəsinə vermişik. 30 illik işğal dövrü başa çatdıqdan sonra Qarabağın 220-dən çox kəndində tədqiqat işləri aparmışıq. Ümumilikdə, 10 rayonda 250.000-dən çox soydaşımızın mina təhlükəsi üzrə maariflənməsinə nail olmuşuq. Bu gün də öz imkanlarımızı və potensialımızı Qarabağın inkişafına, onun çiçəklənməsinə və parlaq gələcəyinə səfərbər edirik. Biz bu torpaqlara qayıdışa inancı hər zaman yüksək olan vətəndaş cəmiyyəti təşkilatı olaraq bundan sonrakı dövrdə də mütərəqqi quruculuq və bərpa yolu keçəcəyimizə sonsuz inanırıq. Biz bu yola inanaraq, inandığımız liderin yanında ilahi bir güc ilə toplaşaraq çıxdıq və dayanmadıq.

4. Gün var əsrə bərabər... Dəyərli sözlər çoxmənalı olur, onları yalnız məcazi mənada yozmaq heç də mükəmməl yanaşma deyil. 20 ildən çox müddət ərzində Azərbaycana birmənalı olaraq uğurla rəhbərlik edən İlham Əliyevin beşinci dəfə prezident seçkilərinə qatılması və parlaq qələbəsi təqvimin sadə bir gününə – 2024-cü il fevralın 7-nə hüdudsuz zaman miqyası və tarixi mahiyyət qazandırır. İlham Əliyev 20 il ərzində Azərbaycan xalqının bütün nailiyyətlərinin təşkilatçısıdır. Bu fikirləri istəkli oxucularla bölüşərkən illərin o tayından ulu öndərimiz Heydər Əliyevin dönə-dönə təsdiqlənən sözlərini eşidirəm:

“O, yüksək intellektli, praktik düşüncəli, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev və Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirmək Azərbaycan dövlətinin inkişafı, xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm...”

Bu gün hər birimiz Ümumilli liderimizin böyük etimadının sözbəsöz doğruldluğunun şahidiyik...

İnkişaf – təbii, iqtisadi, sosial, siyasi, mədəni, mənəvi təkamülün, keyfiyyətcə dəyişmənin adıdır. Azərbaycan xalqının yüzillikləri əhatə edən tarixi yolundakı inkişaf mərhələlərini kimsə dana bilməz. Məsələ burasındadır ki, iyirmi il ərzində Azərbaycan xalqı və İlham Əliyevin müştərək müəllifliyi ilə əldə olunmuş yekunları yalnız inkişaf göstəriciləri saymaq azdır. Çünki, o, kifayət qədər möhtəşəm milli inkişafla bərabər, müasir Azərbaycan intibahının müəllifidir. Belə müəlliflik səlahiyyəti ciddi şərtlər daxilində mümkün ola bilir. Məncə, ilk şərt odur ki, İlham Əliyev dövlət rəhbərliyinə başlayan ilk günlərdə Ulu öndərin yoluna, ümumxalq sədaqətinə üz tutdu və belə seçim dünən də, bu gün də Azərbaycanın hərtərəfli, qlobal uğurlarının müasir, milli və ideoloji əsaslarını təmin edir. Cənab İlham Əliyev dövlətin qüdrətinin ideal şəkildə qorunması baxımından xalqın ləyaqətini, milli heysiyyətini, vətəndaşlıq düşüncəsini bərpa edən tarixi şəxsiyyətdir. Sübut günümüzün reallıqlarıdır; Azərbaycanın dövlət müstəqilliyi tam, dönməz, əbədi bərqərar olmuşdur. Milli iqtisadi inkişaf beynəlxalq səviyyədə nümunədir. Azərbaycanda ərazi bütövlüyünü, ölkənin sərhədlərini qorumaq qüdrətinə malik ordu yaradılmışdır. Sosial-infrastruktur quruculuğunun həm miqyası, həm keyfiyyəti, həm də görülən işlərin sürəti heyrətamizdir. İyirmi il ərzində müvafiq mərhələ ardıcıllığı ilə əhalinin həyat şəraiti yüksəlmiş, insanların təhlükəsizliyi, asayiş təmin olunmuş, hüquqi dövlət möhkəmlənmişdir.

Bu gün ölkənin beynəlxalq nüfuzu bərabərhüquqlu əməkdaşlığa əsaslanır. Müstəqil Azərbaycanın heç bir dövlətdən və qüvvədən asılılığı yoxdur. İlham Əliyevin uğurlu rəhbər obrazını tamamlayan səciyyəvi göstəricilər sayılanlarla bitmir, bunlar barədə təhlilçilər, icmalçılar, ekpertlər beynəlxalq miqyaslı politoloqlar, jurnalistlər, sadə insanlar hər gün söz açır, danışır və yazırlar. Əsas məsələ odur ki, İlham Əliyevin uğurlu siyasətinin bəhrəsi Azərbaycan xalqına məxsusdur!

***Umud MİRZƏYEV,***
***Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti, şair-publisist, Əməkdar mədəniyyət işçisi***

# Çoxlu sualın bir cavabı!

(əvvəli 1-ci səhifədə)

Ermənistanı öz himayəsinə götürməklə onu növbəti fəlakətə sürükləyən Fransa beynəlxalq aktor kimi bölgədə nüfuzunu genişləndirməyə çalışır. Rəsmi Parisin Cənubi Qafqaz siyasəti, əslində, erməni dövlətçiliyinin altını qazımağa xidmət edir. Bəli, Paris açıq-aydın Ermənistanı yeni müharibəyə, həm də dağıdıcı nəticələri əvvəlcədən məlum olan uğursuz savaşa sürükləyir. Azərbaycana qarşı uzun müddətdir davam edən informasiya savaşı məhz müharibə planının tərkib hissəsi sayılmalıdır. Həmin dezinformasiya kampaniyasının əsas şüarını yada salaq: “Azərbaycan Ermənistana hücuma hazırlaşır”. Hitler Almaniyasının ideoloji arsenalından götürülən bu taktikadan yararlanan Paris və İrəvan sinxron hərəkət etməyə üstünlük verirlər.

“Erməni–fransız tandeminin əsas məqsədi Rusiyanı regiondan sıxışdırmaq və erməni cəmiyyətində Parisin hərbi müttəfiq kimi Moskvanı əvəz edə biləcəyi illüziyasını yaratmaqdır”. Bu sözlərin müəllifi hərbi ekspert David Camalyan gəldiyi qənaətində tamamilə haqlıdır: “Biz yeni müharibənin astanasındayıq. Bu müharibəyə isə Azərbaycan deyil, Fransa və Ermənistan maraqlıdır”.



İntəhası, Paris–İrəvan münasibətlərində bütün xətlər, kənardan göründüyü kimi, heç də hamar deyil. Ermənistan cəmiyyətinin özündə Fransa–Ermənistan strateji əməkdaşlığının o qədər də təhlükəsiz olmadığını düşünənlər yetərincədir. Bəzi erməni ekspertlər Fransadan tədarük edilən silah-sursatın yararsız olduğunu qeyd edirlər. Onlar Parisin əsl məqsədinin özünü Ermənistanın başlıca silah tədarükçüsü kimi gözə soxmaq olduğunu deyirlər.

Başqa bir hərbi ekspert Hayk Naqapetyan jurnalistlərə açıqlamasında bildirib ki, Fransa Ermənistana silah tədarükü üzərində imitasiya edir. Yəni özünü bu ölkənin fədakarı kimi göstərməyə çalışır. H.Naqapetyan nümunə kimi, “Bastion” zirehli texnikasını göstərərək, onun döyüş meydanında faydasızlığına diqqəti çəkib: “Bu texnikanı Ukraynaya təklif etdilər, amma Kiyev istəmədi. Çünki, bu maşının zirehi iriçaplı pulemyotların qarşısında acizdir”.

Belə qənaətə gəlmək olar ki, Yelisey sarayının drijorluğu ilə Ermənistanı yenə üfürür, ondan yeni mif düzəldirlər. Nikol Paşinyan başda olmaqla onun komandasından anti-Rusiya obrazı formalaşdırılır. Paşinyan iqtidarına müxalif düşərgədə yer alan bəzi siyasilər də rəsmi İrəvanı Qərbin yağlı vədlərinə inanıb reallıq hissini itirməkdə, əsas xətdən kənar, beşinci dərəcəli məsələləri gündəmə gətirməkdə qınayırlar. Aparıcı xətt isə ondan ibarətdir ki, əgər Ermənistan təxribata əl atıb Azərbaycanla aşkar gərginliyə gedərsə, sonda zərərçəkən özü olacaq.

Deyilən xəttin tərəfdarları hesab edirlər ki, NATO üzvü olan Fransa hələlik KTMT-də qalan Ermənistana hərbi yardım göstərə bilməyəcək. Rəsmi Parisin Ermənistanı NATO sistemində olmayan fransız silahları ilə təchiz etməsinə, bunun elə də böyük effekti olmayacaq. İndiki vəziyyətdə Makron Fransasının Ermənistanı xam xəyallarıa, illüziya bataqlığına sürüklədiyini əksəriyyət anlasa da, Nikol Paşinyan iqtidarı bunu başa düşmək istəmir. Onu da qəbul etməkdə çətinlik çəkir ki, Fransa indiki halda özünü BMT-nin, eləcə də üzv olduğu digər beynəlxalq qurumların prinsiplərinə riayət edən sivil dövlət kimi yox, irticaçı ölkə kimi aparır. Bu zaman o, Cənubi Qafqazda yeritməyə çalışdığı kolonialist xislətini heç gizlətməyə çalışmır.

**Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** hesab edir ki, Fransanın Ermənistanı koloniyasına çevirməsi barədə deyilənlərin heç bir əsası yoxdur: “Rusiyanın Ermənistanda beş minlik ordusu durur. Onun bütün sərhədlərinin keşiyini rus hərbçiləri çəkirlər. Bu ölkənin iqtisadiyyatı bütünlüklə Rusiyanın sərəncamındadır. Yəni, indi Fransa oraya on-on beş hərbçi, raket göndərməklə Ermənistanı özünün müstəmləkəsinə çevirəcək? Bu məsələni o qədər də şişirtməyə ehtiyac yoxdur. Bəli, rəsmi Paris bu bölgəyə Ermənistanın vasitəsilə daxil olmağa çalışır. Amma bunun Fransanın kolonialist siyasəti kimi qələmə verilməsi ciddi əsaslara malik deyil”.

* * *

Fransa bu istiqamətdə nə qədər çalışsa da, Ermənistanı başdan-ayağa cəbbəxanaya döndərsə də, bölgədə qüvvələr nisbətini heç vaxt dəyişə bilməyəcək. Yəqin Paris Azərbaycanın hansı hərbi qüdrətə malik olduğunu ya unudub, ya da xatırlamaq istəmir. Cəmi 23 saat ərzində



ermənilərin 30 ilə qurduğu “keçilməz” istehkamları yerlə bir etmiş Azərbaycan Ordusuna İrəvanın Fransa və Hindistandan aldığı hərbi texnikanı, avadanlığı darmadağın etmək üçün bir neçə saat kifayət edər. Ermənistanı hərbiləşdirmək siyasəti yürüdən Fransa, Hindistan və başqalarının cavabını Prezident İlham Əliyev bu il yanvarın 10-da da yerli mediaya müsahibəsində dəqiq verib: “Azərbaycan təhdid hiss etsə, tərəddüd etmədən məhv edəcək”.

Birmənalı olaraq deyə bilərik ki, Fransanın son vaxtlar sərgilədiyi siyasəti Cənubi Qafqazda onsuz da kövrək olan sülhə və təhlükəsizliyə yalnız xələl gətirir. Parisin erməni canfəşanlığı Bakı və İrəvan arasında normallaşmaya doğru gedən ikitərəfli münasibətlərə, sülh prosesinə də mənfi təsir göstərir. Məhz indiki kövrək məqamda rəsmi Paris qısamüddətli də olsa, yeni hərbi qarşıdurmaya nail olmaqla, Ermənistan ərazisində özünün hərbi kontingentini yerləşdirmək bəhanəsini əldə etməyi hədəfləyir. Bu mənada uğursuzluqlar zolağından çıxa bilməyən Makron iqtidarı üçün Ermənistan yeni müstəmləkəyə çevrilməyə ən real namizəddir. Yazının əvvəlində sadaladığımız sualların cavabı ortadadır: Azərbaycanla növbəti savaşın ona nəyin bahasına başa gələ biləcəyi bir yana, ərazisində Rusiya hərbi bazasının yerləşdiyi, İranın da nüfuz dairəsində olan Ermənistan üçün Fransa hərbi kontingentinin ölkəyə gəlişinin hansı nəticələrə aparıb çıxara biləcəyini təsəvvür etmək belə qorxuludur.

Axı, İrəvan iqtidarı diz çökdüyü 44 günlük müharibədə, dabanının yerə dəymədiyi 23 saatlıq lokal antiterror tədbirində Azərbaycan Ordusunun malik olduğu silahın qüdrətini, eləcə də bizim zabit və əsgələrimizin heç vaxt azalmayacaq şücaətini əyani şəkildə gördü və dərisində hiss etdi.

**İmran BƏDİRXANLI**
**XQ**

# Odla oynayan özünü yandırar

**Ermənistan baş naziri Nikol Paşinyan odla oynamaqda davam edir. Hakimiyyətə gəldiyi gündən o, ölkəsinin Rusiyadan qopmasına çalışır. Bunu isə erməni hökumətinin başçısı, təbii ki, özünün iradəsi ilə deyil, Qərbdəki “ağa”larının tapşırığı ilə edir. Onun Fransaya son səfəri də bir daha təsdiq etdi ki, Paşinyan Rusiyaya arxalanmaq fikrindən uzaqdır, özünün və ölkəsinin təhlükəsizliyi ilə bağlı təminatı Qərbə, xüsusən də Fransaya həvalə etməkdə qərarlıdır. Amma bu, alınacaqmı?**



Görünən budur ki, İkinci Qarabağ müharibəsindən, eləcə də 2023-cü ilin sentyabrındakı antiterror tədbirlərindən sonra da Ermənistan təhlükəsizliyini yaşadığı regionda deyil, uzaq xaricdə axtarmaqda davam edir. Amma bunun əbəs olduğunu Ermənistanda da, Rusiyada da, elə regionun digər ölkələrində də başa düşənlər az deyil. Təəssüf ki, Paşinyan hələ də regional əməkdaşlıq və təhlükəsizliyin İrəvan üçün ən yaxşı çıxış yolu olduğunu başa düşmür, yaxud buna imkan vermirlər. Əlbəttə, bu istiqamətdə Parisin ona birbaşa təzyiqini unutmamalıyıq.

Ermənistan baş naziri bugünlərdə Parisdə prezident Makron tərəfindən yüksək səviyyədə qəbul edildi, o ki, var tərifləndi və sonda isə erməni və fransız xalqları arasında “dərin emosional bağlar” haqqında bəyanat verdi. Bununla yanaşı, Rusiyanı çox qıcıqlandırmaq istəməsə də, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə münasibətlərindəki soyuqluğu gizlətməyərək bildirdi ki, Ermənistan daha bu quruma etibar etmir. Ona görə də KTMT-də iştirakını “dondurub”. Onun dediyinə görə, KTMT xüsusilə 2021–2022-ci illərdə İrəvana münasibətdə öz funksiyalarını yerinə yetirməyib. Amma Paşinyan hələ təşkilatdan çıxmaq fikrində deyil. Çünki KTMT sıralarını tərk etmək Ermənistanın maraqlarına cavab vermir. Eyni zamanda, Paşinyan Gümrüdəki 102-ci Rusiya hərbi bazasını da hələ ölkədən çıxarmağa tələsmir. Təbii ki, bütün bu bəyanatlar Rusiyanın qəzəblənməsinə yol verməmək üçündür. Amma əslində, Ermənistan addım-addım Rusiyadan uzaqlaşaraq Fransanın ağuşuna atılmaqdadır.

Bunu Rusiyada da yaxşı başa düşürlər. Moskvada isə hələ məsələləri şişirtmək istəmirlər. Bununla belə, İrəvana müəyyən xəbərdarlıqlar edilir. Prezident Vladimir Putin yumşaq şəkildə bildirib ki, KTMT-dən çıxmaq Ermənistanın maraqlarına cavab vermir.

RF XİN başçısı Sergey Lavrov diplomatik tərzdə bildirib ki, “İrəvana kimin məsləhət verdiyini deyə bilmirəm. Amma biz Rusiya–Ermənistan–Azərbaycan prosesinin həm marşrutların açılması, həm sərhədin delimitasiyası, həm də sülh sazişinin hazırlanması üzrə nəticələr verdiyini görən Avropa İttifaqı, Fransa, Almaniya və ABŞ-nin dərhal, həm də dəvətsiz şəkildə bu proseslərə müdaxilə etdiyinin, pozucu rol oynadığının şahidi olduq”.

Dünən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Katibliyindən də Paşinyanın Fransa bəyanatı ilə əlaqədar deyilib ki, KTMT Katibliyi İrəvandan üzvlüyün dayandırılması ilə bağlı heç bir açıqlama almayıb, Ermənistan baş nazirinin tezisi, görünür, respublikanın təşkilatın bir sıra tədbirlərində iştirak etməməsinə aiddir: “Bu günə kimi KTMT Katibliyinə İrəvandan KTMT-də üzvlüyün dayandırılması ilə bağlı heç bir bəyanat daxil olmayıb. İştirakın dondurulması tezisinə gəlincə, görünür, söhbət Ermənistan Respublikasının son vaxtlar təşkilatın həyata keçirdiyi bir sıra tədbirlərdə iştirak etməməsindən gedir”.

Təbii ki, Paşinyan gözüyumulu şəkildə Fransanın felinə uyub. Amma Fransa heç də bu ölkənin təhlükəsizliyi qeydinə qalmaq fikrində deyil, özünün siyasi ambisiyalarını həyata keçirmək, Cənubi Qafqazda mövqeyini möhkəmlətmək niyyətindədir. Elə Ermənistana bəzi köhnə-köşkül silahların, hərbi texnikaların verilməsi də bunu göstərir. Ağlı başında olan bəzi ermənilər də bunu başa düşürlər. Məsələn, erməni poliotoloq Aleksandr İskəndəryan da etiraf edib ki, Ermənistanda çoxları bu ölkənin təhlükəsizliyini təmin etmək funksiyalarını yerinə yetirən Rusiyanı başqası ilə əvəz etmək istəyirlər. Bu isə ciddi səhvdir: “Rusiya bu funksiyaları yerinə yetirməyib, hələ də yerinə yetirmir və yerinə yetirmək niyyətində də deyil. Onlar məşğuldurlar, öz qayğıları çoxdur. Bu xəyali Rusiyanı başqası, o cümlədən Qərb əvəz edə bilərmi? Əlbəttə yox. Gec-tez özümüz işləməli olacağıq, yoxsa işlər daha da pisləşəcək”.

Doğrudan da, sabah Paşinyan Fransanın təhriki ilə yenidən müharibəyə başlasa, döyüş meydanında, təbii ki, fransız deyil, erməni əsgəri öləcək. Axı Fransanın Cənubi Qafqazda Rusiyanı sıxışdırıb onun yerində yerləşməsi üçün, İkinci Qarabağ müharibəsindəki kimi, daha 10 minə qədər erməni gəncinin qurban verilməsi Paşinyana çoxmu lazımdır?! Yəqin ki, yox. Hələ “dərin emosional bağlar”a Rusiya tərəfindən veriləcək reaksiya haqqında danışmırıq. Yəqin ki, Ukraynaya baxanda fəlakətin miqyasını təsəvvür etmək mümkündür.

Ona görə də hesab edirik ki, Azərbaycanın uzatdığı sülh əlini tutmaq lazımdır. Bu, həm sülh, həm əmin-amanlıq, həm əməkdaşlıq, həm sosial-iqtisadi tərəqqi, ən nəhayət, həm də təhlükəsizlik deməkdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da əbəs yerə demir ki, Ermənistan təhlükəsizliyini uzaqlarda deyil, regionda axtarmalıdır. Bu, ən düzgün addım olardı…

***Paşa ƏMİRCANOV***
***XQ***

KÖŞƏ

# Cəhənnəmə getməyin vaxtı...

## *Yaxud cavab atəşi açmaq məqamı*

**Fevralın 23-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atəşə tutub.**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Azərbaycanın Müdafiə Nazirliyi bildirir ki, iki ölkənin şərti sərhədində vəziyyətin gərginləşdirilməməsi və sabitliyin təmin edilməsi məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən cavab tədbirləri görülməyib. Qurum, eyni zamanda, bildirib: “Ermənistanın hərbi rəhbərliyini şərti sərhəddə son beş ayda hökm sürən sabitliyin pozulması və vəziyyətin yenidən nəzarətdən çıxmasına yönəlmiş bu kimi təxribatlara yol verməməyə çağırır, bu əməlləri törədənlərin isə müəyyən edilərək cəzalandırılmasını tələb edirik”.

Yazımıza Müdafiə Nazirliyinin iki gün əvvəlki məlumatı ilə başlamağımız heç də təsadüf deyil. Bunun səbəbini biləcəksiniz. Hələlik isə bəzi maraqlı, maraqlı olduğu qədər də qəribə məqamları diqqətə çatdıraq. Ermənistanın hazırda Azərbaycana münasibətdə tutduğu xəttin, yumşaq ifadə etsək, yarıtmazlığına diqqət yetirək. Ancaq bundan əvvəl Prezident İlham Əliyevin 2024-cü il fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edərkən səsləndirdiyi bir fikri xatırladaq: “Azərbaycan ilə Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma, bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır”.

Məlum olduğu kimi, dövlətimizin başçısının bildirdiklərindən on iki gün sonra, yəni fevralın 13-də Azərbaycan – Ermənistan şərti sərhədində atəşkəs pozuldu. Erməni snayperi Azərbaycan sərhədçisinin nişana aldı və yaraladı. Cavab tədbirləri nəticəsində qarşı tərəfin dörd hərbçisi məhv edildi. Bu, öz yerində.

Deməli, ölkəmizin liderinin nəzərində tutduğu məntiqi sonluğa, yəni sülh müqaviləsinin imzalanmasına doğru atılmalı olan addım atılmır. Günahkar Ermənistandır. Müvafiq olaraq deyə bilərik ki, İrəvan ölkəmizə qarşı ərazi iddialarından geri durmur. Yəni, Prezident İlham Əliyev atəşkəsin sülh perspektivini yüksək dəyərləndiririr, ancaq erməni iqtidarı yenə “ampluasında” qalır. İndi isə keçək qəribəliyə.

Həqiqətən də qəribə vəziyyətdir – bir yandan Ermənistan baş naziri Nikol Paşinyan “France 24” telekanalının efirindən Azərbaycanın ölkəsinə qarşı işğalçılıq niyyətləri güddüyünü bildirir, eyni zamanda, Fransa prezidenti Emmanuel Makron da təxminən eyni şeyi deyir və əlavə edir ki, bu il fevralın 13-də şərti sərhəddəki hərbi toqquşma zamanı Bakının cavabı qeyri-mütənasib olub, digər yandan isə lap əvvəldə bildirdiyimiz kimi, Ermənistan mövqelərimizi atəşə tutur. İndi nə edək? Əslində, əsl mahiyyəti anlamaq çətinlik törətmir və bu barədə söz açacağıq. Əlbəttə, E.Makronun “qeyri-mütənasibliyi” üzərində dayandıqdan, daha doğrusu, ümumən kollektiv Qərbin “qeyri-mütənasiblik” məntiqinə aydınlıq gətirdikdən sonra. Söhbət Azərbaycanın 13 fevral hərbi təxribatına cavabının beynəlxalq miqyasda qiymətləndirilməsindən gedir.

Yada salaq ki, hələ Makrondan əvvəl duruma Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Jozep Borrell münasibət bildirmişdi. O demişdi ki, Azərbaycan şərti sərhəddə Ermənistana qarşı qeyri-proporsional addım atıb. Sən demə, atəş səsi gələndə əvvəl qulaq asmalı, sonra Ermənistanın Müdafiə Nazirliyinə şikayət etməli imişik. Yəni, birbaşa cavab atəşi açmalı, dörd erməni hərbçisini cəhənnəmə yollamalı deyilmişik. Bunu etmişiksə, işğalçıyıq (?).

Bəli, hazırda rəsmi İrəvan, eləcə də onun xaricdəki havadarları var gücləri ilə 13 fevral insidentini Azərbaycanın işğalçılıq niyyəti kimi göstərməyə çalışırlar. Belə çıxır ki, qarşılarına məhz bunu məqsəd qoyub, sonra atəş açıblar. Yaxşı bilirlər ki, borclu qalmırıq, cavablarını veririk. “İşğalçılıq niyyəti” də elə bu cavabmış. Necə deyərlər, utanmasan, oynamağa nə var...

Sonda gələk Azərbaycanın Müdafiə Nazirliyinin əvvəldə diqqətə çatdırdığımız bir neçə gün öncəki məlumatına. Fikir verdinizsə, orada bir məqam var. MN bildirir ki, iki ölkənin şərti sərhədində vəziyyətin gərginləşdirilməməsi və sabitliyin təmin edilməsi məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən cavab tədbirləri görülməyib.

Azərbaycan MN cavab tədbiri görməsə də, Ermənistanın hərbi-siyasi rəhbərliyinə xəbərdarlıq ünvanlayıb. Əlbəttə, dövlətimiz Ermənistan və havadarlarının 13 fevral insidentinə münasibətlərindəki məntiqi əsas tutmur. Sadəcə bəhanəni kəsir, barəsində danışdığımız qəribəliyi alt-üst etməyə çalışır. Nəzərə alaq ki, rəsmi İrəvan və dəstəkçiləri Azərbaycanın sərt tədbirə əl atmamalı, erməni tərəfinə hadisənin araşdırmaq üçün vaxt verməli olduğunu bildirmişdilər.

Əlbəttə, bu cür yanaşma tam cəfəngiyyatdır. Necə yəni, vaxt verməli? Hərbi birləşmə uşaq bağçasıdır? Təbii ki, yox! Sadəcə, rəsmi İrəvan deməyə söz tapmırdı. Amma əslində “tapdı” da. Bildirdi ki, sərhəddə atəşkəsi pozan, guya, hansısa könüllü hərbi birləşmənin təmsilçisi olub. Yəni, sən demə, Ermənistan hərbçiləri belə iş tutmazlarmış. Eynilə bir vaxtlar Qarabağın özünümüdafiə və könüllü dəstələri də Azərbaycan torpaqlarını öz başlarına işğal etmişdilər... Yəni, ortada bu böyüklükdə həyasızlıq əməli var. İndi isə daha böyük həyasızlıq barədə danışaq.

Deməli, fevralın 23-də atəşkəs pozulur, Azərbaycanın MN məlumat yayıb cavab tədbiri görmədiyini, rəsmi İrəvandan hadisənin araşdırılmasını, günahkarların məsuliyyətə cəlb olunmasını tələb edir, qarşı tərəfin cavabı isə budur: Ermənistan silahlı qüvvələri atəş açmayıblar. Belə çıxdı ki, eşidilən atəş səsi deyilmiş, məsələn, Aşot özünü pis hiss edirmiş, Azərbaycan hərbçiləri durumu səhv salıblar... Yaxud, Avropa İttifaqının Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfində lövbər salmış mülki müşahidə missiyasının üzvlərindən hansısa biri yeməyini qarışdırıb, fəsad yaranıb...

Əlqərəz, cavab verəndə işğalçı olursan, cavab verməyib təmkinlə davrananda da adamı dəli yerinə qoyurlar. Məsələnin mahiyyəti də elə budur. Bir halda ki, Ermənistan səmimi yanaşmır: daha bir nəticə hasil olur ki, onun silahlı qüvvələri qarşıdakı müddətdə də hərbi təxribatlarından qalmayacaq. Əlbəttə, Azərbaycan dövləti atəşkəsin davamlı pozulması hallarına, o cümlədən, mövcud fonda rəsmi İrəvanın günahı həyasızlıq elementləri ilə ört-basdır etməsinə həmişə dözümlü yanaşmayacaq. Yəni qarşı tərəf anlamamalıdır ki, törətdiyi əmələ görə cavab almayacaq. Alacaq, özü də tam sərt şəkildə. Hər şeyin öz vaxtı var. Elə cəhənnəmə getməyin də...

# AMEA yeni mərhələdə: elmi fəaliyyətin təşkilində sinergizm

## (Prezident İlham Əliyevin çağırışları fonunda)

**II MƏQALƏ**

**Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Onları qiymətləndirmək lazımdır.**

***Heydər ƏLİYEV***
**Ümummilli lider**



### Akademiyada elmi fəaliyyətin müasir təşkili

I məqalədə vurğuladığımız kimi, hazırda AMEA-da elmi fəaliyyətin təşkili Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi prinsiplər üzrə müasir elmdə aparıcı hesab olunan təşkilati özəlliklərlə sıx əlaqədə reallaşır.

Bunun üçün AMEA rəhbərliyi dünyanın aparıcı elmi təşkilatlarının təcrübəsini dərindən öyrənir və Azərbaycanda elmi mühitin reallıqlarını nəzərə alaraq addımlar atır. Həmin baxımdan I məqalədə vurğuladığımız Beynəlxalq Elmi Şuranın Beynəlxalq Elmi Şura Komitəsinin 2021-ci ildə "XXI əsrdə azad və məsuliyyətli elmi praktikaya müasir baxış" adlı məruzəsi ilə Azərbaycanda "Elm haqqında" Qanuna edilən dəyişikliklər arasında ideya uyğunluğu diqqəti çəkir.

Konkret olaraq, bizim "Elm haqqında" Qanuna "elmi fəaliyyətə qoyulan məhdudiyyətlərin ləğv edilməsi" müddəasının daxil edilməsi elmi fəaliyyətin təşkili baxımından proqressiv addımdır. Eyni zamanda, daha əhəmiyyətli cəhət Beynəlxalq Elmi Şuranın məruzəsində azad elmi və məsuliyyətli fəaliyyətin sıx qarşılıqlı əlaqədə nəzərdən keçirilməsindən ibarətdir.

Elmi fəaliyyətdə azadlığı, sərbəstliyi təbliğ edən beynəlxalq təşkilat eyni dərəcədə təqiqatçının fərdi və kollektiv miqyasda məsuliyyətini də zəruri şərt kimi qoyur. Məruzənin "Tövsiyələr" bölümündə həmin məsuliyyətin fərdi, toplumsal və dövlət aspektləri ayrıca vurğulanır. Deməli, XXI əsrdə elmi fəaliyyətin təşkili həm mürəkkəb struktur-funksional özəlliyə malikdir, həm də fəaliyyət sərbəstliyi ilə kollektiv gerçəklik qarşısında məsuliyyəti eyni səviyyədə əhəmiyyətli hesab edir.

Burada digər məqam hər bir dövlətin elmdə özünəxas tarixi yol keçməsi və hazırkı mərhələdə onun üçün aktual olan məsələlərin xarakteri ciddi təsirə malikdir. Azərbaycan üçün bu məsələləri Prezident İlham Əliyev müəyyən etmişdir və dövlət başçısının elm siyasətində, proqramlarında və çağırışlarında onlar konkret ifadə edilmişdir. AMEA rəhbərliyi də məhz sırf həmin kontekstdə elmi təşkilatda fəaliyyət strategiyasını müəyyən etmişdir.

Deməli, AMEA rəhbərliyinin elmi fəaliyyətin təşkili ilə bağlı müəyyən etdiyi 8 istiqamət milli reallıqlarla beynəlxalq miqyasda elmi fəaliyyət üçün aparıcı və perspektivli sayılan prinsiplərin sinergetik qarşılıqlı əlaqəsi prizmasında dəqiqləşdirilmişdir və buna görə tam əsaslıdır. İndi bu nəticənin konkret izahını verək. Bunun üçün öncə hər istiqamətin ayrıca fəlsəfi-sinergetik təhlilini aparmaq lazımdır, sonrakı mərhələdə isə onların sistem halında eımi fəaliyyətin təşkilinin hansı ümumi mənzərəsini yaratdığı üzərində dayanmaq lazım gəlir.

### İslahatların çevikliyi

Məsələnin bu aspektinə iki istiqamət həsr edilmişdir: "İdarəetmənin və aparılan islahatların çevikliyinin artırılması" və "Elmi müəssisələr üçün aktual olan məsələlərin geniş müzakirəsi". Onların ümumi məntiqi nəticəsi bu iki istiqamətin qarşılıqlı əlaqəsində elmi fəaliyyətin təşkilini Prezidentin çağırışlarına uyğun həyata keçirməkdən ibarətdir. Burada isə AMEA prezidentinin ifadə etdiyi ölkənin strateji inkişafına xidmət göstərən elmi fəaliyyətin gerçəkləşməsi strateji məqsədi nəzərdə tutur.

Deməli, söhbət faktiki olaraq AMEA-da geniş müzakirələr əsasında aktual olan problemlərin aydınlaşdırılaraq, çevik islahatların aparılması başlıca xətti təşkil edir. Elmi fəaliyyətin dövlətçiliyə xidmət aspektində məsələnin bu tərəfi olduqca vacibdir. Çünki XXI əsrdə bütün sferalarda proseslər çox sürətlə cərəyan edir və onların adekvat elmi dərki strateji kontekstdə prinsipial əhəmiyyət daşıyır.

Azərbaycan rəhbərliyi yeni tarixi mərhələdə indiki yüzilin məhz bu çağırışlarına uyğun inkişaf kursunu müəyyən etmişdir. Şübhə yoxdur ki, intellekt əsrində Azərbaycanda AMEA həmin prosesin həm yaradıcılıq, həm də sosial-mədəni funksionallıq baxımından aparıcı qurumudur! Buna görə də ölkənin baş elmi təşkilatında dəyişikliklərə sistemli islahatlar səviyyəsində çevik reaksiya arxivacibdir.

Deməli, 8 istiqamətin ilk 2 tezisi faktiki olaraq AMEA-nın fəaliyyətinin fəlsəfi və sinergetik mahiyyətini müəyyən edir. Burada "fəlsəfə" və "sinergetika" bəzək terminlər kimi işlədilmir, əksinə onların hər birinin məzmun məsuliyyəti ciddi nəzərə alınır. Məsələ ondan ibarətdir ki, müasir mərhələdə fəlsəfi refleksiya, bütövlükdə, elmi fəaliyyətin adekvat əsasını, yönünü və strateji hədəfini anlamağa yardım edirsə, sinergizm bu məqsədə çatmağın müasir mexanizmlərini ifadə edir. AMEA-da qarşıdakı vəzifələrə məhz bu iki müasir elmi-nəzəri anlamlar trendinin sintezində baxılır. Bunun çox perspektivli olduğunu və geniş təməldə ölkədə elmin inkişafının adekvat mənzərəsini yaratdığını düşünürük.

Sonrakı iki istiqamət də bu prizmada çox aktual təsiri bağışlayır.

### Səmərəli həll yollarına doğru

3-cü və 4-cü istiqamətlər belədir: "Meydana çıxan problemlərin səmərəli həll yollarının axtarılması" və "AMEA-nın elmi müəssisələri arasında qarşılıqlı əlaqələrin yaradılması". Əslində, bu iki istiqamət qədim yunan metaforası ilə desək, "bir almanın iki üzüdür". Yəni onlar bir-birini immanent (daxili mahiyyətə görə) tamamlayırlar. Çünki elmdə səmərəli həll yollarının axtarışı öncədən kollektiv fəaliyyəti və kommunikativ təmasları tələb edir. Sinergetik ifadə etsək, həll yolları axtarışı daima intersubyektiv xarakterlidir. AMEA kimi strukturda isə "intersubyektiv həll axtarışı"nın praktiki reallaşma mexanizmi elmi müəssisələr arasında qarşılıqlı əlaqədə əyaniləşir, aktuallaşır və eyni zamanda, reaktuallaşmanı motivə edir (təkrar-təkrar əyaniləşmə və yenidən aktuallaşma, yəni kəsilməz proses formasında gerçəkləşmə).

Buradan digər rasional qənaət alınır ki, aktual problemlərin həllində AMEA rəhbərliyi elmi müəssisələr arasında qarşılıqlı əlaqələrə ciddi əhəmiyyət verir. Bunun elmi və təşkilati faydasının böyük olduğuna əminəm. Çünki müasir dövrdə dövlətçiliyin inkişafı və hətta, milli ideyanın perspektivli məzmununun müəyyən edilməsi, bütövlükdə, Azərbaycanın elmi camiyəsinin üzərinə ciddi məsuliyyət qoyur. İki mənada:

Birincisi, indiki tələblərdə dövlətin, ölkənin və cəmiyyətin perspektivli inkişafının ilk növbədə milli intellektlərin fəaliyyəti əsasında müəyyən edilməsi zərurəti mövcuddur.

İkincisi, söhbət Azərbaycan üçün arxivacib olan milli ideya ilə inkişaf strategiyasının yeni mərhələdə vəhdətindən gedirsə, deməli, bizim hamımızı olduqca ciddi, mürəkkəb və sistemli elmi fəaliyyət gözləyir. Bu prosesdə uğur qazanmağın təməlində isə, şübhə etmirik ki, məhz kollektiv zəkavi innovativ, qurucu və təşkiledici fəaliyyət dayanır. Buna görə də AMEA rəhbərliyinin müəyyən etdiyi 3-cü 4-cü istiqamətlər təşkilatın fəlsəfi-sinergetik mövqeyinin müəyyən edilməsi çərçivəsində daha konkret səviyyədə fəaliyyətin mahiyyətini, məzmunu və məqsədini ifadə etməkdədir.

Məsələnin bu cür qoyuluşunun iki mühüm aspekti sonrakı istiqamətlərdə aydın ifadə edilmişdir. Çünki avtomatik olaraq meydana iki sual çıxır: kollektiv əlaqələr müstəvisində yalnız daxili imkanlarla qənaətlənmək indiki tələblərə adekvatdırmı? Və indiki elmi axtarışlar mexanizmləri yeni təşkilati prinsiplərə nə dərəcədə uyğundur?

### Təcrübə mübadiləsi və yeni axtarışlar

5-ci istiqamət elmi fəaliyyətin təşkili prosesində üç fəaliyyət miqyasını özündə ehtiva edir: Birinci, AMEA daxilində elmi müəsssisələrin təcrübə mübadiləsi. İkinci, AMEA-nın bir təşkilat olaraq ölkə miqyasında digər elm və təhsil strukturları ilə təcrübə mübadiləsi. Üçüncü, AMEA-nın Azərbaycanın baş elmi qurumu kimi beynəlxalq miqyasda təcrübə mübadiləsi.

Hazırda AMEA rəhbərliyi bu üç miqyasın qarşılıqlı əlaqəsini konkret proqramlar vasitəsi ilə inkişaf etdirməyə çalışır. Burada, bizim fikrimizcə. AMEA elmi müəssisələrinin fəaliyyətlərinin təcrübəsinin təhlili aparıcı yer tutur. Çünki bu əsasda, bütövlükdə, AMEA-nın elmi fəaliyyət praktikasının ümumi mənzərəsi, daxili təkamül mexanizmləri və perspektivli fəaliyyətin təşkili kimi məsələlərə aydınlıq gətirilir.

Nəticədə AMEA bir sistemli, bütöv və təkmil elmi struktur olaraq həm ölkədaxili elmi və təhsil mühitində fəaliyyətini tənzimləyir, həm də aparıcı beynəlxalq təşkilatlarla təcrübə mübadiləsini qarşılıqlı yaradıla bilən innovativ mühitə transformasiya etmək şansını artırır. Buradan yenə də AMEA daxilində elmi müəssisələrin qarşılıqlı əlaqəsi kontekstində elmi fəaliyyətin təşkilinin müxtəlif islahat xarakterli özəlliyi probleminə gəlib çıxırıq. Həmin sırada, təbii ki, yaradıcılıq (və ya kreativlik) faktoru həlledici yer tutur. Deməli, yeni tarixi mərhələdə AMEA üçün elmi tədqiqat mexanizmlərinin axtarışı pinsipial strateji əhəmiyyət kəsb edir.

Özlüyündə AMEA rəhbərliyinin zamanında atdığı, eyni zamanda, cəsarət tələb edən addımdır. Bu istiqamətin ön sıraya çıxarılması zamanın tələbidir, gecikmək və ya ləngimək olmaz. Digər tərəfdən, elmi axtarışların yeni mexanizmlərinin axtarışı illərlə formalaşmış stereotipləri qırmağı tələb edir. Təcrübə göstərir ki, bir sıra hallarda ortaya çox sayda təşkilati, psixoloji, idarəetmə, sosial, iradi və hətta yaradıcılıqla bağlı əngəllər çıxa bilər. Bu kimi sindromlar mütləq aradan qalxmalıdır. Həmin prosesdə elmi tədqiqat işlərinin müasir tələblərə uyğun yeni mexanizmlərinin hazırlanması həlledici rol oynaya bilər.

Əlbəttə, elmi tədqiqatların yeni mexanizmlərinin işlənib hazırlanması zaman alan prosesdir. Onun konkret məzmunu birgə fəaliyyətin nəticəsi ola bilər. Həm də təcrübə mübadiləsi konkret yön verə bilər. Bunlarla yanaşı, mənim bildiyim qədər, yeni tədqiqat mexanizmləri mahiyyətcə fənlərarası əlaqələri ciddi səviyyədə nəzərə almalıdır. Əslində, sosial-hunatiar elmlərin sosiumun tədqiqinə yanaşması hər bir variantda interdisiplinar xarakterlidir. Müasir elmi araşdırma təcrübəsi göstərir ki, əsas olaraq fənlərarası araşdırma üsulu ilə cəmiyyət haqqında adekvat bilik əldə etmək imkanı daha çox olur.

O da şübhə doğurmur ki, problemin bu tərəfi özlüyündə çox sayda elmdaxili və sosial-mədəni faktorları nəzərə almağı tələb edir. Bu barədə müasir dövrün tanınmış filosofları, metodoloqları və ayrı-ayrı elm sahələrinin aparıcı mütəxəssisləri fikir yürüdürlər. Deməli, 5-ci və 6-cı istiqamətlər fəaliyyət dinamikasında konkret məzmunlaşa biləcək strateji xarakterli məqamları ifadə edirlər.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Xocalıda insanlar azərbaycanlı olduqlarına görə öldürülmüşdülər

**(əvvəli 1-ci səhifədə)**

Düzdür, Qarabağ zəfərimizlə günahsız şəhidlərimizin intiqamı alınıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsindəki parlaq Qələbəsi 2020-ci ili Azərbaycan tarixinə Zəfər ili kimi yazdı. Güclü siyasi iradə, möhkəm iqtisadi potensial, qüdrətli ordu, Xalq – Lider vəhdəti, cəmiyyətdəki böyük ruh yüksəkliyi, vətənpərvərlik, əzmkarlıq tarixi Qələbəni təmin etdi. Otuzillik həsrət bitdi, torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Bu gün xalqımız Bakıdakı Xocalı soyqırımı abidəsini alnıaçıq, başıuca ziyarət edir, çünki düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Artıq Xocalı soyqırımının anım günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin rəmzinə çevrilib.

Xocalı soyqırımının ildönümləri tarixi həqiqətləri bir daha hamımıza xatırladır. Son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə ardıcıl şəkildə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə siyasəti aparıblar.

1990-cı illərin əvvəllərində Xocalıya qədər ermənilər Qarabağda azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişdilər. Hələ faciədən dörd ay əvvəl, yəni 1991-ci il oktyabrın sonundan Xocalıya gedən bütün avtomobil yolları bağlanmış və şəhər faktiki olaraq mühasirəyə alınmışdı. Yanvarın 2-dən Xocalıya elektrik enerjisi də verilmirdi və bu yaşayış məntəqəsinin Azərbaycanın digər bölgələri ilə bütün əlaqələri kəsilmişdi, yeganə nəqliyyat vasitəsi yalnız vertolyot idi. 1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçan Mİ-8 vertolyotu Xəlfəli kəndinin üzərində Xankəndi tərəfindən atılan raketlə partladıldı, içərisində olan 3 nəfər heyət üzvü və 41 sərnişin həlak oldu.

Bundan sonra isə Ermənistan ordusu bir-birinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi. 1991-ci ilin sonunda Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Meşəli, Cəmilli, Umudlu, Kərkicahan və azərbaycanlılar yaşayan digər strateji əhəmiyyətə malik kəndlər ermənilər tərəfindən yandırıldı, dağıdıldı və talan edildi. 1992-ci il fevralın 12-də Şuşanın Malıbəyli və Quşçular kəndlərində törədilmiş qarət və qırğınlar nəticəsində təkcə Malıbəyli kəndində 50 nəfər öldürülüdü, onlarla insan yaralandı və əsir götürüldü.

1992-ci il fevralın 17-də Ermənistan silahlı qüvvələri və Xankəndidəki 366-cı sovet motoatıcı alayı Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın nəticəsində kəndin hər 10 sakinindən biri şəhid olub. 104 nəfər və müdafiə dəstəsinin 15 üzvü əsir götürülüb, onlardan 80 nəfəri qətlə yetirilib. Öldürülənlərdən 10-u qadın, 8-i uşaqdır. Ümumilikdə, Qaradağlı 1988-1992-ci illərdə 305 dəfə düşmən hücumuna məruz qalmışdı. Bu, Xocalıya aparan yolun başlanğıcı idi. Qaradağlı faciəsinə amansızlığın miqyasına görə ikinci Xocalı da deyirlər.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transportyoru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə aldı. Ermənilər ən müasir silahlarla şəhərə hücum edərək Xocalını yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdıldı və yandırıldı, insanlar isə xüsusi qəddarlıqla qətlə yetirildi. Onların içərisində başları kəsilən, gözləri çıxarılan, dərisi soyulan, diri-diri yandırılanlar çoxluq təşkil edirdi.

Yerli özünümüdafiə qüvvələri son nəfərinə, son gülləsinə qədər vuruşaraq düşmənə çox ciddi müqavimət göstərdilər. Qüvvələr nisbətinin qeyri-bərabər olduğu bu döyüşlər şəhəri müdafiə edən insanların göstərdiyi böyük qəhrəmanlıq, fədakarlıq nümunəsi idi. Xocalıya hücum zamanı erməni kəndlərinin mühasirəsində qalmış şəhərin 3000 nəfərədək silahsız mülki əhalisi düşməndən xilas olmaq üçün şəhəri tərk etdi. Çox təəssüf ki, o dövrdə Xocalıya heç bir kömək olmadığından həmin əhalinin demək olar ki, böyük bir hissəsi erməni vəhşiliyinin qurbanı oldu.

Xocalı 1991-ci ilin oktyabrından blokadada idi. Oktyabrın 30-da quru yolun əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi olaraq helikopter əlaqəsi qalmışdı. Xocalıya sonuncu helikopter 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki helikopterin vurulmasından və nəticədə 41 nəfərin faciəli surətdə həlak olmasından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisinin verilməsi dayandırıldı. Amma bütün bunlara baxmayaraq orada yaşayan əhali bir an belə şəhəri tərk etməyi düşünmürdü. Budur vətən sevgisi, budur torpaq sevgisi!

Bu mənada Xocalı hadisəsi bir qəhrəmanlıq tarixidir.

Fevralın 26-da erməni qüvvələri 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməyilə Xocalıya hücum etdi. Həmçinin yanğınlar törədilmiş və fevralın 26-sı səhər saat 5 radələrində şəhər tam alova bürünmüşdü. Belə bir vəziyyətdə erməni mühasirəsində olan şəhərdə qalmış təqribən 2500 nəfər əhali yaxınlıqda azərbaycanlılar məskunlaşan Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etməyə məcbur oldu. Hava limanının enmə zolağı qəsdən məhv edilərək yararsız hala salınmışdı. Ağdam rayonuna qaçan əhali yaxın ərazidə gülləyə tutuldu və nəticədə çoxlu sayda insan həlak oldu.

Qanla yazılmış statistika belədir: Xocalı soyqırımı nəticəsində şəhərin 5379 nəfər sakini zorakılıqla qovuldu, 1275 insan əsir və girov götürüləxrək işgəncələrə məruz qaldı (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri aldı, 8 ailə tamamilə məhv edildi, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərinin hər ikisini itirdi, 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın və 70 qoca işgəncə verilməklə vəhşicəsinə öldürüldü. 150-dək insan xəbərsiz yoxa çıxdı.

Azərbaycanlı əhalinin amansız soyqırımına dair çoxsaylı faktlar sübut edir ki, bu qətliam Ermənistanın xalqımıza qarşı həyata keçirdiyi sistemli zorakılıq siyasətinin tərkib hissəsi olmaqla yanaşı, insan hüquqları və beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın, digər beynəlxalq sənədlərin tələblərinin pozulmasıdır.

Azərbaycan dövləti illərdən bəridir ki, Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatıdırılması, onun soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş aparıb. Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra açıqlanıb, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib.

Prezident İlham Əliyev Xocalı soyqırımını törədənlərin ifşa olunmasını və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılmasını Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Eləcə də, Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, bu soyqırımına obyektiv qiymət verilməsi məqsədilə davamlı addımlar atılır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub.



Aparılan siyasi-diplomatik işlərin nəticəsində indiyədək 17 dövlətin milli qanunvericilik orqanı, həmçinin ABŞ-nin 23 ştatı Xocalıda dinc əhalinin qətliamını pisləyən və bunu insanlıq əleyhinə cinayət aktı kimi dəyərləndirən qətnamə və qərarlar qəbul edib. Eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatında və Türk Dövlətləri Təşkilatında Xocalı soyqırımının kəskin şəkildə pislənilməsini ehtiva edən qətnamə və bəyanatlar qəbul olunub.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi düşmənin əsl mahiyyətini bir daha əyani şəkildə nümayiş etdirdi. Döyüş meydanında Azərbaycan əsgərinin qarşısında aciz qalan düşmən hərbi əməliyyatların getdiyi ərazilərdən uzaqda yerləşən yaşayış məntəqələrimizi raket atəşinə tutdu. Nəticədə, aralarında uşaqların, qadınların da olduğu dinc sakinlər həlak oldu. Gəncəyə, Bərdəyə, Tərtərə, Naftalana və digər yaşayış məntəqələrimizə atılan raketlər erməni faşizminin nə qədər təhlükəli olduğunu bir daha göstərdi.

30 il işğal altında olan torpaqlarımızda bu gün hər addımda erməni faşizminin, vandallığının şahidi olmaq mümkündür. Ermənilər işğal etdikləri ərazilərdə bütün yaşayış məntəqələrimizi, tarixi, dini, mədəni abidələrimizi məhv etməklə azərbaycanlıların bu torpaqlara qayıdışının qarşısını almaq istəyiblər. Bu niyyətlərini ərazilərin hər qarışına mina basdırmaqla daha da möhkəmləndirməyə çalışıblar. Lakin onların bu arzuları da puç oldu. Azərbaycan öz gücü ilə ədaləti bərpa etdi, işğala son qoyuldu, müharibədən dərhal sonra azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq prosesinə başladı. Artıq bu yerlərdə yenidən həyat canlanır. Bu iki fərqli proses – dağıdıcılıq və quruculuq dünyaya ermənilər və azərbaycanlılar arasındakı fərqi aydın şəkildə nümayiş etdirir.

Müharibə başa çatsa da, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi gündəmə gəlsə də, erməni vəhşiliyini, 32 il əvvəl Xocalıda törədilmiş amansız soyqırımını heç vaxt unutmaq olmaz. Prezident İlham Əliyev bildirib: "Biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq".

Bu il xalqımız Xocalı soyqırımının 32-ci ildönümünü qeyd edir. Ölkəmizin bütün şəhər və rayonlarında, bütün kollektivlərdə, Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərində Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilir, erməni faşizminin qanlı siması bəşəriyyətə bir daha açılıb göstərilir.

Xalqımız Qarbağdan işğalçı quldur orduları dağıdıb ölkəmizdən qovduğu kimi, Xocalı cəlladlarının da cəzalandırılmasına nail olacaq. Bu soyqırımı qurbanlarının Qarabağ Zəfəri ilə sevinmiş ruhuna bir daha dinclik gətirəcək. Bu divan dünyada belə qırğınların qarşısının birdəfəlik alınması üçün də zəruridir.

**XQ-nin analitik qrupu**

# Paşinyan "qırmızı xətləri" keçir

## Baş nazirin son addımları Moskva ilə yanaşı, Tehranda da narahatlıq doğurub

**Fransanın müdafiə naziri Sebastian Lekornunun fevralın 22-23-də Ermənistana etdiyi səfər regionda gərginliyin artması ilə yadda qaldı. Səfərin davam etdiyi saatlarda Ermənistan ordusunun bölmələri Azərbaycanla şərti sərhəddə atəşkəs rejimini pozdu. Halbuki, fevralın 12-də Zəngilan istiqamətində törədilən təxribatı nəzərə almasaq, iki ölkənin şərti sərhədində 5 aya yaxın idi ki, nisbi sakitlik hökm sürürdü. Fevralın 23-də, səhər saatlarında isə Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutdular.**



Bununla bağlı Müdafiə Nazirliyinin yaydığı məlumatda diqqətçəkən bir cümlə var. Nazirlik bildirdi ki, iki ölkənin şərti sərhədində vəziyyətin gərginləşdirilməməsi və sabitliyin təmin edilməsi məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən cavab tədbirləri görülməyib. Eyni zamanda, MN Ermənistanın hərbi rəhbərliyini şərti sərhəddə son beş ayda hökm sürən sabitliyin pozulması və vəziyyətin yenidən nəzarətdən çıxmasına yönəlmiş bu kimi təxribatlara yol verməməyə çağırıb, həmin əməlləri törədənlərin isə cəzalandırılmasını tələb edib.

Fransız nazir erməni həmkarı ilə keçirdiyi mətbuat konfransında ölkəsinin lazım olarsa, Ermənistana qısa, orta və uzaqmənzilli raketlər verə biləcəyini vurğulayıb. Qeyd edib ki, həmin raketlər Ermənistanın müdafiə qabiliyyətinin inkişafının tərkib hissəsi olacaq: "Ermənistana hansı texnikanın gələcəyi ilə bağlı çox təfərrüata varmayacağam, lakin bunların hamısı müdafiə baxımından əhəmiyyət kəsb edir".

Qeyd edək ki, Fransanın addımları onun regionda sülhün bərqərar olmasını istəmədiyini, vəziyyəti gərginləşdirdiyini və Ermənistanı faktiki olaraq Ukrayna kimi qurban vermək bahasına Cənubi Qafqazda münaqişə ocağının saxlanmasına çalışdığını göstərir. Burada məqsəd Ermənistandakı Rusiyanın 102 saylı hərbi bazasını Fransa bazası ilə əvəz etməkdir. Baş nazir Nikol Paşinyanın Fransada olduğu günlərdə bu istiqamətdə atılan bir sıra addımlar, o cümlədən İrəvan hava limanından rusiyalı hərbçilərin çıxarılması, Paşinyanın Ermənistanla bağlı kollektiv təhlükəsizlik sazişinin yerinə yetirilmədiyi üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında fəaliyyətlərini dondurduqlarını vurğulaması, Fransa müdafiə nazirinin növbəti dəfə Ermənistan üçün ayrılmış hərbi texnika ilə İrəvana səfər edəcəyini bəyan etməsi buna yönəlib. Hərçənd ki, Paşinyan Parisdə olduğu zaman "France 24" telekanalına müsahibəsində bildirmişdi ki, Rusiya hərbi bazasının Ermənistandan çıxarılması məsələsinin müzakirəsi gündəmdə deyil.

Onu da bildirək ki, Fransanın Rusiyanın Ermənistandakı bazasının çıxarılması və əvəzində fransız bazasının yerləşdirilməsi planından İranın kəşfiyyat orqanlarının da məlumatı var və Tehran da bundan narahat olub. Buradan gəlinən qənaət ondan ibarətdir ki, Paris hər zaman yaxşı münasibətdə olduğu Tehranla da münasibətlərin pisləşəcəyinin fərqinə varmır.

Ümumiyyətlə, Ermənistan hökumətinin son günlər atdığı addımlar heç öz ölkəsində də birmənalı qarşılanmır. Xüsusilə, Paşinyanın NATO ölkəsi olan Fransa ilə hədsiz yaxınlaşma kursu götürməsi, Münxendə Ukrayna məsələsində Rusiyanın müttəfiqi olmadıqlarını növbəti dəfə bəyan etməsi, KTMT-də iştirakın dondurulduğunu bildirməsi, İranın maraqlarına məhəl qoyulmaması haylar arasında ciddi təhlükəsizlik qayğılarının yaranmasına səbəb olub.

Ermənistan mediasında edilən çıxışlara baxdıqda da bunu əyani şəkildə görmək mümkündür. Məsələn, hərbi-siyası şərhçi Ayk Nahapetyan bildirib ki, Ermənistan Rusiya ilə tarixi münasibətlərindən geri çəkilir, Paris isə Kremlin keçmiş müttəfiqləri üzərində təsirini gücləndirməyə çalışır. Bu sırada Moldova və Mərkəzi Asiya ölkələri də var. Ekspertin fikrincə, verilən silahlar Ermənistan üçün heç bir effekt verməyəcək: "Həmin silahları Ukraynaya da təklif etmişdilər, lakin Kiyev onlardan imtina etdi. Çünki onlar real döyüş əməliyyatları zamanı heç bir



əhəmiyyət kəsb etmir. Fransız radarlarının Ermənistana verilməsinə gəldikdə isə burada da məqsəd bəllidir. Rusiya və Ermənistan arasında hava hücumundan müdafiə qüvvələrinin birgə idarə olunması barədə saziş mövcuddur. Fransa isə bununla Ermənistanın hava məkanının ümumi idarəetmə sisteminə daxil olmağa çalışır. Son hədəf isə Ermənistanı Rusiya–Ukrayna cəbhəsinə daxil etməkdir".

Ekspert bu mənada Fransa müdafiə nazirinin ölkəyə səfərinin arxasında təhlükəli məqamların olduğunu deyib: "Fransa, əslində, Ermənistana silah vermir, sadəcə olaraq, imitasiya yaradır. Hədəf Rusiyaya qarşı ikinci cəbhənin açılmasıdır, çünki Kiyev cəbhəsində nəticənin necə olacağı artıq aydın görünür. Gec-tez bu cəbhə NATO-nun məğlubiyyəti ilə bağlanacaq".

Politoloq Suren Surenyants isə "Facebook" səhifəsində yazıb: "Nikol Paşinyanın "France 24" telekanalına müsahibəsinin əsas məqamlarını oxudum. Təəssüf ki, bu adam hələ də primitiv ideyalara sadiq qalır. O, hesab edir ki, Rusiyanı münaqişəyə nə qədər sürükləməyə çalışsa, Qərbdən bir o qədər çox dəstək alacaq. Lakin Paşinyanın bu avantürası Ermənistan üçün 1920-ci ildə olduğu kimi mənfi nəticələrə gətirib çıxara bilər. Paşinyan hər şeyi edir ki, yolumuzun üzərində kələ-kötür çox olsun. Bütövlükdə, deyəsən, Paşinyanın ürəyi 1920-ci ildə Aleksandropolda baş verən hadisələri təkrarlamaq istəyir. Bu gedişlə biz yalnız Paşinyanın hansısa Qərb ölkəsinin paytaxtında siyasi səhnədə də məğlubiyyəti ilə bağlı xatirələrini yazacağını təxmin edə bilərik".

Politoloq Akop Badalyan Ermənistanın düşdüyü vəziyyəti "çox narahatedici" adlandırıb. O qeyd edib ki, erməni cəmiyyəti Qarabağ məsələsində Rusiyanın mövqeyindən razı qalmayıb. Amma hakimiyyətin bu vəziyyətdən çıxış yolu axtararkən Fransanın maraqlarının "ön xəttində" dayanması da doğru yanaşma sayıla bilməz.

Mövzu ilə bağlı söhbətləşdiyimiz politoloq İlyas Hüseynov "XQ"yə açıqlamasında bildirdi ki, Fransa Cənubi Qafqazda mövqelərini möhkəmləndirmək niyyətini güdür. Onun sözlərinə görə, yeni geosiyasi reallıqlarda Paris bölgədə siyasi, həmçinin iqtisadi-maliyyə təsirlərini həyata keçirə bilmir və həmin niyyətlərini Ermənistanın hesabına reallaşdırmaq istəyindədir: "Biz görürük ki, Ermənistanla Fransa arasında sıx əməkdaşlıq həyata keçirilməkdədir. Hayastanın baş naziri Nikol Paşinyanın bir neçə gün öncə Fransaya etdiyi səfər, prezident Emmanuel Makronla görüşməsi, görüşdən sonra keçirilən mətbuat konfransında səslənən fikirlər, "France 24" telekanalına müsahibə göstərir ki, Ermənistan da Rusiyanı regiondan çıxarmaq məqsədi güdür və 102-ci hərbi bazanı fransız bazası ilə əvəzləmək istəyir. Fransa da bu maraqların ardınca Cənubi Qafqazda geopolitik nöqteyi-nəzərdən öz strategiyasını formalaşdırır. Eyni zamanda, qeyd etməliyik ki, artıq müxtəlif partiyalarla Fransa silahlarının Ermənistana çatdırılması da həyata keçirilir. Müdafiə naziri Lekornunun İrəvana səfəri zamanı gecəgörmə cihazları və radarlar da daxil olmaqla, Fransa texnikasının Ermənistana tədarükü həyata keçirildi".

Politoloq qeyd etdi ki, "Beşinci Respublika" Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiyanı qəbul etmək istəmir: "Bununla yanaşı, Paşinyanın "France 24"-ə müsahibəsi, Rusiya hərbçilərinin İrəvandakı "Zvartnos" hava limanından çıxarılması, Ermənistanın Moskvanın dominantlıq etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) iştirakını faktiki olaraq dondurduğunu bəyan etməsi və hərbi sahədə Fransa–Ermənistan əməkdaşlığının dərinləşməsi ilə bağlı verilən mesajlar birbaşa revanş məqsədi güdür. Fransa regiondan nə qədər uzaq olsa da, öz maraqlarını Ermənistan hesabına təmin etməyə çalışır".

İ.Hüseynov hesab edir ki, fransız hərbçilərin Cənubi Qafqaza gəlişi, heç şübhəsiz, bölgədəki ənənəvi oyunçular tərəfindən də mənfi qarşılanır: "Rusiyanın 102 saylı bazasının fransız bazası ilə əvəzlənməsi artıq İran tərəfindən də narahatlıqla qarşılanır. Güman etmək olar ki, bu plandan İranın kəşfiyyat orqanlarının da məlumatı var. Tehranın narahatlıqları da buradan qaynaqlanır".

Müsahibimiz qeyd etdi ki, ümumiyyətlə, regional geosiyasi konyuktura "3+3" formatının ən münasib çıxış yolu olduğunu sübut etməkdədir: "Lakin Ermənistan bura əlavə qüvvələri, əlavə geosiyasi mərkəzləri dəvət edir. Xüsusilə, Fransanın bölgədə görünməsi regional oyunçular üçün qəbuledilməzdir. Bir müddət öncə Fransanın briqada generalı da Ermənstana səfər etmişdi. O, İrəvanda hərbi məktəbdə mühazirə oxumuşdu. Digər tərəfdən, Sebastian Lekornu da İrəvanda bildirdi ki, Fransanın Ermənistanda daimi hərbi müşaviri olacaq. Hərbi müşavirin əsas vəzifəsinə gəldikdə isə bildirildi ki, o, fransız texnikasının tətbiqini öyrədəcək, onun xüsusiyyətlərindən istifadə üçün şəxsi heyətin hazırlanmasında iştirak edəcək. Bu təyinat regional təhdidi bir qədər də artırır, gərginliyin böyüməsinə səbəb olur".

Politoloq onu da bildirdi ki, Fransa Ermənistan vasitəsilə Cənubi Qafqazda ənənəvi oyunçuları sıxışdıraraq öz mövqelərini gücləndirmək niyyətini reallaşdırmaqdadır. Ancaq bunun İrəvan üçün acı nəticələri ola bilər. Belə ki, Fransa Ukrayna kimi Ermənistanı qurban vermək istəyir və bölgədə yeni gərginlik ocağı yaratmaqla öz siyasi məqsədlərini davam etdirir.

*Səxavət HƏMİD*
*XQ*

# Bakı Təşəbbüs Qrupunun İstanbul konfransı

## Fransanın müstəmləkəçilik siyasəti ittiham olunub




**Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə İstanbulda keçirilən "Dekolonizasiya: İntibah dövrünün başlanğıcı" mövzusunda beynəlxalq konfrans işini panel iclaslarla davam etdirib.**

İclaslarda "Kolonizasiyanın milli kimliyə təsirləri", "İntibah dövrünün dekolonizasiyası üçün Fransa hökuməti tərəfindən yaradılmış süni hüquqi maneələr" mövzularında müzakirələr aparılıb.

Mövzular müstəmləkəçiliyin milli kimliyə təsirləri, Fransa hökuməti tərəfindən yaradılan süni hüquqi maneələr, bu bölgələrdə etnik və mədəni ayrı-seçkilik, siyasi qeyri-sabitlik, münaqişələr, sosial və iqtisadi problemlər, medianın təqibi, əsassız həbslər, təhlükəsizlik, miqrasiya, sərhədlər, milli resurs və mülkiyyət, insan hüquqları və ədalət, vətəndaşlıq kimi məsələlərə dair fikir mübadiləsi aparılıb.

İclaslarda mövzuya dair suallar cavablandırılıb.

Qeyd edək ki, konfransa dünyanın 13 ölkəsindən və 5 beynəlxalq təşkilatdan ümumilikdə 50 nümayəndə iştirak edib. Konfrans iştirakçılarının böyük əksəriyyəti Fransanın hələ də müstəmləkəsi altında olan dənizaşırı ərazilərindən gələn şəxslərdir. Onlar Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair faktlarla İstanbuldan bütün dünyaya səsləniblər.

Xatırladaq ki, Bakı Təşəbbüs Qrupu ötən il iyulun 6-da Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Ofisinin nazirlər toplantısı çərçivəsində yaradılıb.

Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının müstəmləkəçilik və neokolonializm təcrübələrinə qarşı mübarizədə prinsipial mövqeyinin əsaslılığını və aktuallığını təsdiqləyib.

***

**Panel müzakirələrindən sonra iştirakçılar adından Fransa Prezidenti Emmanuel Makrona açıq məktub ünvanlanıb.**

Məktubda BMT Baş Assambleyasının dekolonizasiya ilə bağlı qətnamələrinə istinad edilərək, həmin sənədlərin 60 ildən çoxdur qəbul olunmasına baxmayaraq, Korsika, Melaneziya, Polineziya, Karib və Antil adaları qrupunda yaşayan xalqların bu gün də Fransanın müstəmləkəçiliyindən və neokolonializmindən əziyyət çəkdiyi vurğulanır.

Həmin adalarda Fransanın törətdiyi müxtəlif cinayətlər, habelə bu torpaqların Fransa dövləti tərəfindən işğal edilməsi, yerli iqtisadiyyatın inkişafına bilərəkdən maneə yaradılması, yerli əhalilərin pestisidlərlə zəhərlənməsi və əhalinin bunun fəsadlarından əziyyət çəkməsi, insanların məcburi emmiqrasiyaya sövq edilməsi, bu ərazilərə qanunsuz köçürülmənin bu gün də aparılması, orada müstəmləkəçi məhkəmə sistemlərinin tətbiqi və digər faktlar da məktubda kəskinliyi ilə əksini tapıb.

İştirakçılar Emmanuel Makrondan Fransa hökumətinin qanunsuz hərəkətlərini dayandırması tələbini irəli sürərək, bu ərazilərdə mədəni və dini irsin vəziyyətinə dair məruzənin hazırlanması üçün UNESCO missiyasının həmin bölgələrə göndərilməsinin əhəmiyyətini vurğulayıb, ATƏT-in ətraf mühit, iqtisadiyyat, insan hüquqları və yerli əhalilərin hüquqlarına dair vəziyyətinin öyrənilməsi missiyasının müstəmləkə ölkələrinə göndərilməsi üçün quruma müraciət ünvanlamasına çağırış ediblər.

*XQ*

# Azərbaycanın media təmsilçisi beynəlxalq məclisdə

**Fevralın 24-də İstanbul şəhərində İslam Əməkdaşlıq Təşkilatının İnformasiya Nazirləri Konfransının növbədənkənar sessiyası keçirilib. Tədbirdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov iştirak edib.**

Tədbirdə münaqişə zonalarında jurnalistlərin fəaliyyəti, dezinformasiyaya qarşı kollektiv reaksiyanın əhəmiyyəti istiqamətində müzakirələr aparılıb.

# Qərbi Azərbaycan İcması: təşkilatlanma davam edir

**Qərbi Azərbaycanın rayon və kənd icma sədrləri və Azərbaycan Respublikasının ərazi vahidləri üzrə nümayəndələrinin birinci toplantısı keçirilib.**




Qərbi Azərbaycan İcmasında keçirilən tədbirdə çıxış edən İcmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Qərbi Azərbaycana qayıdış uğrunda İcmanın ətrafında birləşən rayon və kənd icmalarının rəhbərlərinin toplantısının önəmini qeyd edib. Sədr bildirib ki, ötən əsrdə dörd dəfə doğma ata–baba yurdlarından deportasiya edilmiş qərbi azərbaycanlılar evlərinə qayıdacaqları günü səbirsizliklə gözləyirlər. Sonuncu - 1987-1991-ci illərdəki deportasiya zamanı Ermənistanın tamamilə monoetnik dövlətə çevrildiyini vurğulayan sədr qərbi azərbaycanlıların çıxarıldıqları yurd yerlərinin bu gün də boş və dağıdılmış, talan edilmiş halda olduğunu diqqətə çatdırıb.

Əziz Ələkbərli qeyd edib ki, soydaşlarımızın sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışının təmin edilməsi istiqamətində hər bir qərbi azərbaycanlı səfərbər olmalı, haqq səsimizin daha geniş auditoriyaya çatdırılması istiqamətində əlindən gələni etməlidir. Bu məqsədlə Qərbi Azərbaycanın rayon və kənd icmalarının sədrlərinin üzərinə böyük mənəvi məsuliyyət düşür. Qərbi azərbaycanlıların nəinki indi, gələcəkdə qayıdışdan sonra da kompaktlığını təmin etmək, əlaqələrinin sıxlığının qorunub saxlanması kimi məsələlərdə bu şəxslərin rolu vacibdir.

*XQ*

# Londonda COP29 müzakirəsi

**Britaniya–Azərbaycan Ticarət Palatasının təşkilatçılığı ilə Londonda Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq haqqında məlumat xarakterli tədbir keçirilib. Tədbirdə Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson, ölkəmizin Böyük Britaniyadakı səfiri Elin Süleymanov, Azərbaycan və Britaniyadan olan iş adamları, iqlim dəyişikliyi ilə bağlı müxtəlif qurumlarda çalışan ekspertlər iştirak ediblər.**

Baronessa Emma Nikolson Azərbaycanın COP29-a ev sahibliyi etməyindən böyük məmnuniyyət duyduğunu bildirib. O qeyd edib ki, belə bir tədbirin Azərbaycanda keçirilməsi çox vacibdir.

Exeter Universitetində Biznes məşğulluğu və innovasiyalar üzrə prorektor müavini Stuart Brokılhörst gələcək qlobal iqlim risklərindən danışıb, iqlim dəyişikliyinə təsir edən əsas dönüm nöqtələri haqqında tədbir iştirakçılarına məlumat verib.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov bildirib ki, Azərbaycan indiyəcən çoxsaylı böyük beynəlxalq tədbirlərə ev sahibliyi edib. Səfir Azərbaycanın COP29-un tələblərinə çox əminliklə cavab verə biləcəyini deyib.



Tədbirdə daha sonra COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri Nərmin Carçalova, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun icraçı direktorunun müavini Zöhrab Qədirov, "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktoru Ülvi Mansurov çıxış edib.

*XQ*

# Dohada Azərbaycan Mədəniyyəti Günləri

**Dohada Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində ölkəmizin tanınmış incəsənət ustalarının iştirakı ilə təntənəli qala-konsert keçirilib.**

Musiqi axşamında Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri çıxış edib. Dirijor Mustafa Aşurovun rəhbərliyi ilə ansamblar gecənin solistləri ilə birlikdə xalq mahnılarını, Azərbaycan və ərəb bəstəkarlarının əsərlərini səsləndiriblər.

Konsert proqramı Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Cəngi"nin ifası ilə başlayıb. Sonra Fikrət Əmirov, Tofiq Quliyev, Arif Məlikov, Rauf Hacıyev, Emin Sabitoğlu, Dadaş Dadaşov, Ələkbər Tağıyev, Həsən Rzayev, həmçinin Əhəb Abd əl-Vahed, Fərid əl-Əfraş və başqalarının əsərləri böyük məharətlə ifa olunub.

Solistlər Xalq artisti Azər Zeynalov, Əməkdar artistlər Nərgiz Kərimova, Babək Niftəliyev, Emil Əfrasiyab (piano) və Çinarə Mütəllibova (qanun), həmçinin Məqsəd Əzizov (balaban), İbrahim Babayev (tar), Əli Quliyev (saz), İlkin Dövlətov, Fatimə Cəfərzadə, İdris Hüseynov (ud), Elnur Mikayılov (kamança) və Aytən Məhərrəmovanın çıxışları tamaşaçıların alqışları ilə qarşılanıb.

# İqtisadi siyasət – tərəqqinin lokomotivi

**Azərbaycan bu gün qeyri-neft sektorunun inkişafı istiqamətində islahatların ardıcıl xarakter daşıması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional layihələrin həyata keçirilməsi sayəsində dünyanın ən sürətlə və dayanıqlı inkişaf edən ölkəsinə çevrilib.**



Bu, dövlətimizin başçısının fevralın 14-də yenidən Azərbaycan Prezidenti seçilməsi münasibətilə keçirilən andiçmə mərasimindəki nitqində də aydın ifadəsini tapıb. Ölkə rəhbəri çıxışında cari ilin yanvar ayının nəticələrinə əsaslanaraq, bu müddətdə ümumi daxili məhsulun 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artmasını qeyd edib. Dövlətimizin başçısı nitqində belə bir nəticənin Azərbaycanın gələcək uğurlarında əsaslı rol oynayacağına əminliyini diqqətə çatdırıb. Prezident İlham Əliyev daha sonra deyib: "Müqayisə üçün vurğulaya bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Yəni bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində görün öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq. Bu, bizə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir".

Ümumiyyətlə, Azərbaycanın strateji valyuta ehtiyatlarının artımının dinamik xarakter alması təsadüfi deyil. Bu, əsasən, dövlət başçısının uzaqgörən siyasətinin, qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan uğurlu islahatların, investisiya mühitinin əlverişliliyinin nəticəsində mümkün olub.

Dövlətimizin başçısının çıxışlarının birində bununla bağlı qeyd etdiyi kimi, uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın dayanıqlı surətdə inkişaf etməsinə, bir sektordan – neft-qaz sektorundan asılı olmamağa imkan verib. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi Azərbaycanın ümumi iqtisadi inkişafına təsir etməyib. Bu, Azərbaycanın iqtisadi modelinin unikallığı və ölkəmizin seçdiyi yolun nə qədər düzgün olmasını bir daha göstərirb.

Yeri gəlmişkən, Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin təminatı olan valyuta ehtiyatlarının getdikcə artması iqtisadi islahatların daim diqqət mərkəzində saxlanılmasının məntiqi nəticəsidir. Xatırladaq ki, 2004-cü ildə birinci regional Dövlət Proqramı hazırlanıb qəbul edilən zaman respublikamızın valyuta ehtiyatları cəmi 1,8 milyard dollar idi. Azərbaycan, hətta ən çətin illərdə, dünyada maliyyə böhranı hökm sürdüyü dövrdə – 2015-ci, 2016-cı, 2017-ci illərdə belə valyuta ehtiyatlarını qoruya və artıra bildi. Təkcə 2019-cu ildə ölkəmizin valyuta ehtiyatları 6,4 milyard dollar, cari ilin yanvarında isə 1 milyard dollar artdı.

Hazırda Azərbaycanın valyuta ehtiyatları ölkə rəhbərinin adı çəkilən nitqində vurğuladığı kimi, 69,5 milyard dollar səviyyəsinə çatıb. Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları isə profisitli tədiyə balansı şəraitində bu il fevralın 1-nə 11 milyard 661 milyon ABŞ dollar təşkil edib. Bu isə ekspertlərin qiymətləndirmələrində ölkəmizin iqtisadi və siyasi müstəqilliyinin təminatı kimi ifadəsini tapıb.

Azərbaycanın valyuta ehtiyatlarının artmasında son illərdə yaradılan sənaye zonalarının da mühüm təsiri olub. 2023-cü ildə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye müəssisələrində 26 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Həmin sahibkarlıq subyektləri tərəfindən sənaye zonalarına 471 milyon manat investisiyanın yatırılması, 3100-dən çox iş yerinin yaradılması nəzərdə tutulub.

Keçən il sənaye zonalarında fəaliyyətə başlayan 12 müəssisədə polimer qatqıları, keramik plitələr, qablaşdırma məhsulları, istilik izolyasiya lövhələri, nəqliyyat vasitələri üçün əyləc bəndləri və s. məhsullar istehsal olunub. İl ərzində rezidentlər tərəfindən sənaye zonalarına 135 milyon manatdan artıq investisiya yatırılıb, 744 daimi iş yeri yaradılıb, 3,3 milyard manat dəyərində isə məhsul satışı həyata keçirilib.

Qeyd edək ki, indiyədək sənaye zonalarına 6,6 milyard manatdan çox investisiya yatırılıb, 10 mindən artıq daimi iş yeri yaradılıb. Bütövlükdə isə, ötən müddətdə ölkənin sənaye zonalarında 12,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 3,9 milyard manatlıq və ya 32,2 faizə yaxın hissəsi ixrac olunub. Sənaye zonalarında istehsal olunan məhsullar Kanada, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Hindistan, İsrail, İspaniya, İtaliya, Avstriya, İngiltərə, Brazilya və s. olmaqla dünyanın 70-dək ölkəsinə göndərilib.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi



**Emin BAĞIROV,**
**mexanika üzrə fəlsəfə doktoru,**
**şərhçi**

Azərbaycanda bu gün iqtisadiyyat üçün yeni istiqamətlər formalaşıb. Bu istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracının genişləndirilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun təmin edilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və kölgə iqtisadiyyatının səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr müsbətdir. Yuxarıda xatırladılan göstəricilər də bunun bariz ifadəsidir.

Son illərdə iqtisadi inkişafın dinamik xarakter almasında kapital qoyuluşu mühüm rol oynayıb. Reallaşdırılan investisiya yeni istehsal və xidmət sahələrinin, iş yerlərinin açılmasını şərtləndirib. Nəticədə məhsul istehsalı artıb, göstərilən xidmətlərin keyfiyyəti yaxşılaşıb.

Respublikamızda xarici və daxili investisiyaların iqtisadiyyata cəlb edilməsi istiqamətində də müxtəlif proqramlar həyata keçirilib. Məhz elə buna görə də Azərbaycan kapital qoyuluşunda nəinki MDB məkanında, hətta bir çox Şərqi Avropa ölkələrindən öndə olub.

Hesabat ilində də ölkəyə investisiya qoyuluşunda müsbət dinamika nəzərə çarpıb. Belə ki, ölkə iqtisadiyyatında yüksək iqtisadi artım templəri, habelə dövlət büdcəsinin investisiya xərclərinin icrasının sürətlənməsi, o cümlədən işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti-bərpa işlərinin həyata keçirilməsi fonunda 2023-cü ildə əvvəlki dövrlərlə müqayisədə əsas kapitala investisiyaların real artım tempi müsbət göstəricilərlə diqqət çəkib.

Dövlət Statistika Komitəsindən bildirildiyinə görə, hesabat ilində ölkədə əsas kapitala 20 milyard 297 milyon manat məbləğində, yaxud 2022-ci illə müqayisədə 9,8 faiz çox vəsait yönəldilib. Məlumata əsasən, neft-qaz sektoruna cəlb edilən investisiyaların həcmi 10,9 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 9,3 faiz artıb. İstifadə olunan vəsaitin 12 milyard 485 milyon manatı və ya 61,5 faizi məhsul istehsalı sahələrinə, 6 milyard 840 milyon manatı (33,7 faizi) xidmət sahələrinə, 971 milyon manatı (4,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilən vəsaitlərin 16 milyard 412 milyon manatını və ya 81 faizini daxili vəsaitlər təşkil edib. Həmin vəsaitlərin 14 milyard 560 milyon manatı və ya 72 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Bütün bunlarla yanaşı, onu da vurğulamaq lazımdır ki, yoxsulluğun azaldılması, səhiyyə sisteminin müasir standartlara uyğun yenidən qurulması, əhalinin kommunal çətinliklərinin, o cümlədən içməli su probleminin səmərəli həlli olunması, ölkənin enerji təhlükəsizliyinin gerçəkləşdirilməsi, bir sözlə, Azərbaycanın inkişaf strategiyasının uğurla reallaşdırılması beynəlxalq səviyyədə, dünyanın aparıcı siyasi, iqtisadi, maliyyə və digər qurumları tərəfindən də etiraf edilib. Bu, dövlətimizin başçısının fevralın 14-də yenidən Azərbaycan Prezidenti seçilməsi münasibətilə keçirilən andiçmə mərasimindəki nitqində də aydın ifadə olunub: "Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun. Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq".

Ölkə rəhbəri nitqində belə bir vəzifənin prioritet xarakter daşıdığını, bunun üçün xarici sərmayəyə ehtiyac duyulduğunu və iqtisadi islahatların daha da sürətləndirilməsinin, o cümlədən biznes mühitinin yaxşılaşdırılmasının zəruriliyini də diqqətə çatdırıb.

Beləliklə, son illərdə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilib, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunub. Respublikada möhkəm siyasi-ictimai sabitlik və təhlükəsizlik, uzaqgörən daxili və xarici siyasət bu müddətdə qarşıya qoyulan mürəkkəb sosial-iqtisadi məqsədlərin, habelə ölkənin ərazi bütövlüyünün bərpasında həlledici rol oynayıb.

# Balaxanıda yeni zavod

**"Təmiz Şəhər" ASC-nin təsərrüfat sahəsi olan Balaxanı Sənaye Parkında rezident kimi qeydiyyatdan keçərək fəaliyyət göstərən "ATAPACK" MMC-nin müasir standartlara cavab verən qablaşdırma zavodu fəaliyyətə başlayıb.**




QSC-dən aldığımız məlumata əsasən, bu sənaye parkında qeydiyyatdan keçən 25 rezidentin ətraf mühitin mühafizəsinə, tullantıların azaldılmasına xidmət edən fəaliyyəti, eyni zamanda "yaşıl iqtisadiyyat"ın inkişafına da töhfə verir. Belə müəssisələrdən biri də "Atapack" MMC-dir.

Qablaşdırma və "flekso" etiket istehsalı sahəsində fəaliyyət göstərən MMC 2018-ci ildə rezident kimi qeydiyyatdan keçərək Balaxanı Sənaye Parkında istehsal sahəsinə 7 milyon investisiya qoyub. Müasir avadanlıqları tətbiq etməklə istehsal imkanlarını genişləndirən müəssisədə 70 yeni iş yeri yaradılıb. "Atapack" MMC ölkədə əsasən su və qazlı içkilərin istehsalı ilə məşğul olan yerli, eləcə də qlobal şirkətlərin böyük bir qisminin etiketlərini istehsal edir.

Yeni istifadəyə verilən istehsal sahəsi bu imkanları daha da artıracaq və müəssisə yerli bazarla yanaşı ixrac imkanlarını da genişləndirəcək. Balaxanı Sənaye Parkında fəaliyyət göstərən digər rezidentlər kimi, "Atapack" MMC-nin də əsas prinsiplərindən biri tullantıları azaltmaq və istehsal prosesində ətraf mühitə təsiri minimuma endirməkdir.

# Cəbrayılda yaşayış kompleksi

**Cəbrayıl şəhərində ilk yaşayış kompleksinin inşasının 2024-cü il ərzində yekunlaşdırılması nəzərdə tutulub. Bu barədə Mənzil İnşaatı Dövlət Agentliyindən (MİDA) aldığımız məlumatda bildirilib.**



Məlumata görə, Cəbrayıl şəhərində tikilən Cəbrayıl Yaşayış Kompleksinin ümumi sahəsi 7,87 hektar təşkil edir. Yaşayış kompleksi 33 yaşayış binasından ibarətdir. Bu binalarda, ümumilikdə, 712 mənzil olacağı planlaşdırılır.

Qeyd edək ki, dördmərtəbəli və beşmərtəbəli binalarda mənzillərin 8-i birotaqlı, 136-sı ikiotaqlı, 8-i ikiotaqlı studio tipli, 392-si üçotaqlı, 168-i isə dördotaqlı olacaq. Birotaqlı mənzillərin sahəsi 40-50 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi 55-90 kvadratmetr, ikiotaqlı studio tipli mənzillərin sahəsi 98-100 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 90-108 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 110-120 kvadratmetr təşkil edəcək.

Altı kvartaldan ibarət kompleksdə bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

***XQ***

# Sərbəst satış sertifikatı nədir?

## *Son 6 ildə 696 məhsula belə sənəd verilib*

**İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "Azexport" portalının rəhbəri Ayxan Qədəşovun redaksiyamıza bildirdiyinə görə, 2018-ci ilin aprel ayından ötən ilin fevral ayına kimi adı çəkilən portal Azərbaycandan ixrac üçün 696 adda məhsula sərbəst satış sertifikatı təqdim edib. Yeri gəlmişkən, həmin sertifikat insan orqanizmi ilə birbaşa təmasda olan tibbi avadanlıqların, dərman vasitələrinin və qida məhsullarının xarici bazarlara ixracı zamanı bəzi ölkələr tərəfindən tələb olunan sənədlər sırasında yer alıb.**

İxrac sərbəst satış sertifikatı sadalanan kateqoriyadan olan məhsulların respublikamızdan ixracı zamanı tələb edilən zəruri sənədlər siyahısında yoxdur və könüllü xarakter daşıyır. Buna baxmayaraq, bəzi ölkələrdə sərbəst satış sertifikatı hazırda zəruri sənədlər siyahısındadır. Bu da həmin dövlətlərdə qida və dərman məhsullarının idxalı zamanı sərbəst satış sertifikatının mövcudluğunu mütləq şərt edir.

Hazırda dünya ölkələrində bu sertifikata olan tələb artmaqdadır. Yəni hər il daha çox dövlət sərbəst satış sertifikatını qida və dərman məhsullarının idxalı üçün zəruri sənədlər siyahısına əlavə edir. Bəzi hallarda isə sertifikatın beynəlxalq adı regiona görə dəyişir. Buna misal olaraq "Free Sale Certificate" (FSC), "Certificate of Free Sale" (CFS) və "Free Sale Declaration" (FSD) kimi formaları qeyd etmək olar. Adların fərqliliyinə baxmayaraq, bunlar Azərbaycanda "Azexport" portalı tərəfindən təqdim olunan sərbəst satış sertifikatı ilə eyni hüquqa malik sənəd kimi qəbul edilir.

İİTKM-in məlumatında bildirilir ki, sərbəst satış sertifikatı Azərbaycan Prezidenti İlham Əliyevin 12 sentyabr 2017-ci il tarixli müvafiq Fərmanına uyğun olaraq "Azexport" portalı tərəfindən təqdim edilir. Sertifikat ixrac olunan malın Azərbaycan Respublikasında sərbəst dövriyyədə olduğunu, aidiyyəti dövlət orqanları və qurumları tərəfindən sertifikatlaşdırıldığını və standartlara cavab verdiyini təsdiqləyir. Sertifikatın verilməsi "Made in Azerbaijan" məhsullarının əvvəllər ixracında çətinlik yaranan Amerika, Asiya, Okeaniya, Avropa və Körfəz regionunun 100-dən artıq ölkəsinə məhsulların ixracını asanlaşdırır.

Məlumatda sərbəst satış sertifikatın əldə edilməsi qaydasına da aydınlıq gətirilir. Bildirilir ki, ixracatçı ödənişi, sertifikatı üçün lazımlı sənədləri (qida təhlükəsizliyi, baytarlıq/fitosanitar, uyğunluq sertifikatları, qeydiyyat şəhadətnaməsi və malların ölkə daxilində satışını sübut edən sədərləri) və sertifikatın alınması üçün ərizəni doldurduqdan sonra icra üçün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə göndərməlidir. Ərizə alındıqdan 3-14 iş günü müddətində sərbəst satış sertifikatı hazır və təsdiqlənmiş şəkildə onlayn qaydada ixracatçının ərizədə göstərdiyi ünvana çatdırılır.




Sərbəst Satış Sertifikatı təqdim edildiyi gündən 1 il müddətinə etibarlı hesab edilir. Sertifikatın həqiqiliyini və etibarlığını təsdiq etmək üçün www.dth.az/check keçidindən istifadə olunur.

Bütün bunlara əsaslanıb deyə bilərik ki, son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin diqqət mərkəzində saxlanılması və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına əsasən, yuxarıda vurğulanan tədbirlər nəticəsində 2023-cü il ərzində Azərbaycanın ümumi ixracı 33,9 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,8 faiz artaraq 3,3 milyard dollar təşkil edib. Hesabat dövründə yeyinti məhsulları üzrə ixrac 928 milyon dollara bərabər olub. Elektrik enerjisinin ixracı 3,3 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 1,9 dəfə, plastmas və ondan hazırlanan məmulatların ixracı 19,3 faiz, qara metallardan məmulatların ixracı 13,3 faiz, meyvə-tərəvəz ixracı isə 8,7 faiz artıb.

Ötən il ixracın həyata keçirilməsində önəmli rol oynayan "Azexport.az" portalının fəaliyyəti istiqamətində də müəyyən layihələr gerçəkləşdirilib. İİTKM-də ötən ilin hesabatına dair keçirilən mətbuat konfransında bu barədə ətraflı bəhs edilib. Qurumun icraçı direktoru, professor Vüsal Qasımlının sözlərinə görə, hesabat dövründə bu portal vasitəsilə 56 sərbəst satış sertifikatı təqdim olunub. Bununla da sertifikatların ümumi sayı 689-a çatdırılıb. Cari il isə "Azexport" vasitəsilə ölkədaxili məhsul-çatdırma xidməti istifadəyə verilib. Eləcə də "Azexport"un xətti ilə ilk dəfə ABŞ-a məhsul ixrac edilib. Portalın daha bir yeniliyi isə "Metaverse" platformasında 10 şirkət və yerli media qurumları üçün virtual stend və konfrans zalının quraşdırılması olub.

İİTKM-də hesabat konfransında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən 2023-cü ildə, ümumilikdə, 5 ölkəyə – İsveçrə, Rusiya, Türkiyə, Gürcüstan və İtaliyaya 243 milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilib. İxrac edilən məhsullar isə, əsasən, qiymətli metallar, süd və qənnadı məhsulları, polad boru və pambıq mahlıcı olub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 91** **Bakı şəhəri, 20 fevral 2024-cü il**

***"Dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi Qaydası və şərtləri"nin təsdiq edilməsi barədə***

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 340-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydalarının təsdiq edilməsi barədə" 2002-ci il 28 yanvar tarixli 665 nömrəli, "Azərbaycan Respublikasının dövlət orqanlarında dövlət qulluğunun rəhbər vəzifələrinin tutulması üçün ehtiyat kadrların formalaşdırılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2006-cı il 27 iyul tarixli 432 nömrəli, "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 21 iyun tarixli 1480 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 14 iyul tarixli 1398 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi Qaydası və şərtləri" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 92** **Bakı şəhəri, 20 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 oktyabr tarixli 422 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları"nda və 2019-cu il 11 dekabr tarixli 472 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar Sığorta Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 947-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2015-ci il 14 iyul tarixli 566 nömrəli, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 9 mart tarixli 820 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 2265 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 oktyabr tarixli 422 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1739) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2.8-ci yarımbəndə "Mərkəzi Bankı" sözlərindən sonra "(bundan sonra - Mərkəzi Bank)" sözləri əlavə edilsin;

1.2. 2.1-ci bənddə "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra - Palata)" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.3. 2.3-cü (hər iki halda), 2.9-cu, 2.10-cu, 2.11-ci və 3.18-ci bəndlərdə ismin müvafiq hallarında "Palata" sözü ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.4. 2.9-cu bənddə "20 (iyirmi)" sözləri "10 (on)" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 dekabr tarixli 472 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2056 (Cild I) ilə təsdiq edilmiş "Aqrar Sığorta Fondunun Nizamnaməsi"nin 5.7.9-cu yarım-bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 93** **Bakı şəhəri, 20 fevral 2024-cü il**

***"İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, iri dövlət şirkətlərinin gəlirlərin və xərclərin proqnozlaşdırılmasına və icrasına nəzarətin daha da gücləndirilməsi, xərclərin optimallaşdırılması və səmərəlilik göstəricilərinin yüksəldilməsi, habelə bu sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı qəbul olunmuş normativ hüquqi aktların icrasından irəli gələn məsələlərin həlli məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları haqqında" 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2249 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin siyahısı" yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 94** **Bakı şəhəri, 20 fevral 2024-cü il**

***"Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin, strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında***

"Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 sentyabr tarixli 2318 nömrəli Fərmanının 6.1.2-ci və 6.1.3-cü yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin strukturu" təsdiq edilsin (əlavə olunur).

**3.** "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin işçilərinin say həddi 118 ştat vahidi müəyyən edilsin.

**4.** Bu Qərarın 1-ci hissəsində dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 95** **Bakı şəhəri, 21 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun tətbiqi və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2237 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 361 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada peşə və ixtisaslara uyğun dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanmasında iştirak etmək;".

**2.** 4.15.6-cı yarımbəndə "6.7-ci bəndi" sözlərindən sonra "və 4.15.6-1-ci yarımbəndi" sözləri əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda 4.15.6-1-ci yarımbənd əlavə edilsin:

"4.15.6-1. dövlət peşə təhsili müəssisələrinə müəllimlərin və istehsalat təlimi ustalarının işə qəbul və yerdəyişməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq qərarlar qəbul edir;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 96** **Bakı şəhəri, 23 fevral 2024-cü il**

***"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi stimullaşdırılması məqsədilə Aparatın hesabına köçürülən büdcədənkənar vəsaitlərdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 mart tarixli 86 nömrəli Qərarının ləğv edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi stimullaşdırılması məqsədilə Aparatın hesabına köçürülən büdcədənkənar vəsaitlərdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 mart tarixli 86 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 347; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 yanvar tarixli 38 nömrəli Qərarı) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 98** **Bakı şəhəri, 23 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə və 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1003 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.7-ci yarımbəndə "uşaqların" sözündən əvvəl "uşaqlarla bağlı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 116-1.3-cü maddəsinə uyğun olaraq fərdi inkişaf planının hazırlanmasında və icrasında Nazirliyə kömək göstərmək, o cümlədən" sözləri əlavə edilsin;

1.2. 4.8.12-ci yarımbənddən "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına və" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.7-ci yarımbəndə "uşaqların" sözündən əvvəl "uşaqlarla bağlı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 116-1.3-cü maddə-sinə uyğun olaraq fərdi inkişaf planının hazırlanmasında və icrasında Nazirliyə kömək göstərmək, o cümlədən" sözləri əlavə edilsin;

2.2. 4.8.12-ci yarımbənddən "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına, habelə" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Xocalı – Ağdam arasında "insan ovu"

**Xocalı qətliamı ilə əlaqədar ən çox nümayiş olunan mərhum telejurnalist Çingiz Mustafayevin ürək ağrısı və sızıltı ilə təqdim etdiyi kadrlar var. Həmin kadrlarda qar üstündə qətlə yetirilmiş məsum görkəmli azyaşlı qızın ürəkparçalayan təsviri var.**



– O qız qardaşım qızı 4 yaşlı Lalədir, - deyə Xocalı sakini Tacirə Xəlilova söhbət açır. Lalə çox şirin, hamının sevimlisi olan bir uşaq idi. Mənə elə gəlir ki, ən daşürəkli adam da həmin şəklə biganə qala bilməz. Həmin gecə qulaqbatıran atəş səsləri altında qardaşımgil evdən çıxıb soyuq qış gecəsində Qarqar çayını keçərək Naxçıvanik istiqamətində şumluqla yol gediblər. Sakinlərin dediyinə görə, gecə saat 4-5 arası yaxınlıqdan keçən UAZ markalı maşında olan ermənilər onları görüblər. Gözlərini qan tutmuş erməni quldurları qarlı çöllərdən keçib canlarını qurtarmaq istəyən Xocalı sakinlərini avtomatla güllələbaran ediblər. Lalənin atası Tahir, anası Zərifə qətlə yetirilsə də, özü təsadüfən sağ qalıb. Həmin ərazinin yaxınlığındakı təpənin



arxasında gizlənən sakinlər onu görüblər. O, ətrafda güllələbaran edilmiş adamların üstündəki pal-paltarı gətirib anası Zərifənin üstünü örtürmüş. Həmkəndliləri təpənin arxasından ona nə qədər əl etsələr, nə qədər çağırsalar da, anasını qoyub onlara tərəf gəlməyib. Sonra onun sağ olduğunu görən quldurların bu günahsız körpəyə atəş açmağa da əli gəlib...

Hadisədən üç ay əvvəl – 1991-ci ilin noyabrında Tacirənin həyat yoldaşı Rəşid onu iki körpə uşağı ilə birlikdə Bərdə rayonunun Yeni həyat kəndində yaşayan bacısıgilə aparıb. O, həmin gecə Xocalıda olmasa da, şahidlərdən eşitdiklərini danışır: "Qaladərəsi məhəlləsində qoşa bulağın yanında ata evimiz var idi. Atam həmişə deyirdi ki, ermənilər Xocalıya hücum etsələr, evimizə od vurub çıxacağam. Hətta butulkaya benzin doldurub hazır vəziyyətdə qoymuşdu. Lakin gecə hücum o qədər gözlənilməz və qəfil başlayıb ki, bunu etməyə də imkan olmayıb.

Hər tərəfdən qulaqbatırıcı atəş, atışma səsləri eşidən ailə üzvləri doğma yurdu tərk edərək Dəhraz kəndinə doğru üz tutublar. Atam Qaçay, anam Həsrət, qayınatam Hüseyn, qayınanam Zinyət, qardaşım Tahir, həyat yoldaşı Zərifə, qızları Həmayil, Lalə və Xəyalə camaatla birlikdə xilas yolu axtarmağa başlayıblar. Qardaşımın 23 günlük körpə qızı Xəyalə anasının qucağında olub. Yolda anası süd verəndən sonra anam uşağı şalla belinə şələyib. Böyük qızı 6 yaşlı Həmayil isə atasının əlindən tutaraq gəlirmiş.

Qulaq tutulan atəş səslərindən, dəhşətli gecədə baş verən qəfil hücumdan özünü itirən şəhər sakinləri qarlı düzlərə səpələnərək pərən-pərən düşüblər. Gecəni yol gəlib şumluğa çıxandan sonra erməni vandallarının hədəfinə tuş gəliblər. Qardaşım Tahir aldığı dörd erməni gülləsindən ağır yaralanıb. Arxadan gələn kənd sakinləri ona kömək edərək özləri ilə aparmaq istəsələr də, razılıq verməyib. O, qızı Həmayili aparmağı xahiş edib. Hadisənin şahidləri danışırlar ki, ata ilə balanın həmin ayrılıq səhnəsi çox dəhşətli idi..."

Onun kədər dolu xatirələri həmin günləri bir daha göz önündə canlandırır: "Anam danışırdı ki, 2 kişi, 10 qadın olmaqla 4 saat kolluqda, suyun içində qaldıq. Bizdən irəlidə gedən 70-dən çox sakini ermənilər girov götürmüşdülər. Uşaq ağlayanda bizimlə birlikdə kolluqda gizlənənlər narahat oldular ki, onun səsi erməniləri duyuq salacaq. Hətta onu boğub öldürməyi təklif edənlər də olub. Anam uşağın bələyini açaraq onu təzədən belinə sarıyıb. Bundan sonra uşaq səsini kəsib. Oradan çıxandan sonra çöllərə-düzlərə səpələnmiş meyitlərin yan-yörəsindən adlayaraq çox böyük çətinliklə Ağdama gəlib çıxıblar".

Bunlar ailənin itkilərinin heç də hamısı deyil. Tacirənin həyat yoldaşı Rəşid Hüseynov, bibisi oğlu Hidayət Eyvazov şəhid olub, əmisi oğlu Cavan 16 yaşında itkin düşüb. Onun qardaşı Tahirin qayınatası Zəkara, qayınanası Şura, qayınları Taleh, Əkbər və onların övladları Samir və Sevinc, bacanağı Novruz, onun oğlu Mahir həmin gecədən sağ çıxmayıblar.

"Əlbəttə, bu dərdi daşımaq çətindir. O boyda ailədən indi sağ qalan mən, övladlarım və qardaşım Tahirin iki qızıdır. 7 yaşlı nəvəm babası Rəşidin adını daşıyır. Qızım Azadənin isə iki övladı var. Tahirin qızları Həmayil və Xəyaləyə valideynlərini itirdiklərinə görə Ramanıda ev veriblər, hərəsinin iki övladı var. Əslində, onlar elə mənim nəvələrimdir, babaları yox, nənələri yox...", - deyə Tacirə Xəlilova köks ötürür.

**Süleyman QARADAĞLI**
**XQ**




# Xocalını azad görmək xoşbəxtlikdir

**Xocalı indi azaddır, bir vaxtlar erməni işğalçılarının qanlı çəkmələrinin tapdaladığı o torpaqlar əsl sahiblərinə qayıdıb. Bu yerlərə yenidən həyat qayıdır, xocalılar bundan sonra öz doğma el-obalarında yaşayacaqlar. Amma Xocalı soyqırımı hər zaman hafizələrdə qalacaq. Çünki o, hər zaman bizimlə yaşayacaq bir ağrıdır.**



Bu ağrını-acını uzun illər ürəyində daşıyan soydaşlarımızdan biri də Azərbaycan Tibb Universitetinin operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasına 20 il rəhbərlik etmiş tibb elmləri doktoru, professor Loğman Məmmədovdur. Anım günü ərəfəsində Loğman müəllimlə görüşüb onun Xocalıya həsr etdiyi taxtadan hazırlanmış çoxfiqurlu kompoziyası barədə söhbət etdik.

**– Loğman müəllim, Xocalı soyqırımına həsr etdiyiniz bu çoxfiqurlu kompozisiya barədə məlumat verməyinizi xahiş edirik. Bu əsərinizi necə xarakterizə edərdiniz?**

– Xocalı soyqırımı iki yüz ildən artıq müddətdə erməni millətçi qəsbkarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Bu faciə sinəmizə çəkilmiş dağdır. Xocalı soyqırımı, sadəcə, faciə deyil, erməni millətçilərinin, ekstremistlərinin qeyri-insaniliyinin göstəricisidir. Bu kompoziyada hər birimizə bir çağırış var. Bir yumruq kimi birləşib torpaqlarımızı, Xocalını işğaldan azad etməyə çağırış, ümid əks olunub. Şükür, indi Qarabağ azaddır. Xocalıya, digər azad olunmuş ərazilərimizə həyat qayıdır. 44 günlük müharibədə xalqımız Zəfər qazanmaqla Xocalı soyqırımı qurbanlarının ruhunu şad etdi. Xocalını azad görmək mənə də qismət oldu. Bu kompozisiya da hədəfinə çatdı.

**– İndi Xocalı yeni dövrə qədəm qoyur, bu mövzuda hər hansı bir kompozisiya hazırlamağı düşünürsünüzmü?**

- Kompozisiyanın altına qara lent bağlanıb. O dövrdə Xocalı işğal altında idi. Arzum o idi ki, Xocalı işğalçılardan təmizlənsin, həmin qara lenti açıb yuxarı hissəsində qırmızı lent bağlayacağam. Tələbələrimə də demişdim ki, Xocalının geri alındığı günü görməsəm, bu kompozisiyanı qəbrimin üstünə qoyarsınız. Xocalı işğalçılardan azad edildikdən sonra həmin qara lenti qırmızı lentlə əvəz edərsiniz ki, ruhum şad olsun. Çox şükür edirəm bu günə, Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, digər azad olunmuş ərazilərdə olduğu kimi, bu gün Xocalıda da üçrəngli bayrağımız dalğanır.

Bu qələbəni bizə yaşadan müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə, Qalib Ordumuzun hərbçilərinə minnətdarlığımı bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə də möhkəm cansağlığı arzulayıram.

**Hazırladılar:**
**Anar TURAN,**
**Səbuhi MƏMMƏDOV,**
**Elşən AĞALAR (foto)**
**XQ**

# Gürcüstanda anım mərasimləri

**Gürcüstandakı "Azərbaycan evi"nin təşəbbüsü ilə Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar bu ölkədəki Azərbaycan icması adından ölkənin Gürcüstanın baş nazirinə, prezidentinə, parlament və Xarici İşlər Nazirliyinə, Ombudsman Aparatına, həmçinin, Gürcüstanda akkreditə olunmuş diplomatik korpuslara – ABŞ-nin, Fransanın və Niderlandın Gürcüstandakı səfirliklərinə, eləcə də BMT-nin və Avropa Şurasının Tbilisidəki ofislərinə, UNİCEF-ə, ATƏT və digər beynəlxalq qurumlara çağırış ünvanlanıb.**





"Azərbaycan Evi"nin direktoru Məhəbbət İmanov bildirib ki, qəbul olunan bəyanata Gürcüstanda fəaliyyət göstərən 50-dən çox qeyri-hökumət təşkilatı və 10 dan çox ictimai-siyasi və din xadimi qoşulub. Bəyanatın əsas məqsədi 32 il öncə Ermənistan Respublikası tərəfindən Azərbaycanın Xocalı şəhərində xalqımıza qarşı törədilən qətliama soyqırım aktı kimi qiymət verilməsidir. Direktor Azərbaycan xalqının hər zaman bölgədə sülhün və əmin amanlığın tərəfdarı olduğunu bildirib. Sənəddə insanlığa qarşı törədilən qətliamlar pislənilir, Ermənistan Respublikasının sülhə vadar edilməsi ilə bağlı çağırışlar edilir.

* * *

**Qardabani Təhsil və İnteqrasiya Mərkəzində ali və orta məktəblərin, rayonun gürcü ictimaiyyəti nümayəndələrinin iştirakı ilə Xocalı faciəsinin 32-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Öncə Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Mərkəzin direktoru Çiçək Hüseynova  Ermənistanın apardığı məkrli siyasət, Xocalı soyqırımının ermənilərin tarixən xalqımıza qarşı apardığı etnik təmizləmə və işğal siyasətinin tərkib hissəsi olması haqqında məlumat verib.

Çıxış edənlər Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı, eyni zamanda, əsrlər boyu apardığı azadlıq mübarizəsi tarixində qarşılaşdığı ən dəhşətli hadisələrdən biri olduğunu deyiblər. Qeyd olunub ki, Vətən müharibəsində işğal altında olan torpaqlarımız Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, şanlı Azərbaycan Ordusunun rəşadəti sayəsində azadlığa qovuşub, Xocalı şəhidlərinin qisası alınıb.

Sonda Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfərlərini və Xocalı şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltmasını əks etdirən videoçarx və "İşgəncələr məbədi – Şuşa həbsxanası" filmi nümayiş etdirilib.

**XQ**

# Dünya erməniliyinin Xocalıya "xaç yürüşü"

**O, Livanda məskunlaşıb. Özünü yazıçı-jurnalist kimi təqdim edir. David Xerdiyan Xocalıda soydaşlarının Azərbaycan türklərinin başına gətirdikləri müsibətləri "Xaç uğrunda" kitabında yazıb. Kitabın 19-76-cı səhifələri Xocalı soyqırımından bəhs edir. Hay müəllifin fəxrlə qələmə aldığı, ürəkparçalayan soyqırımı epizodlarından ikisini oxucunun nəzərinə çatdırırıq.**

## Diri-diri yandırılan qızcığazın gözləri



"Fevralın 26-da səhərin soyuğunda Daşbulaq yaxınlığındakı bataqlıqdan keçməli idik. Öldürülmüş xocalıların meyitlərindən körpü düzəltməli olduq. Əvvəlcə meyitlərin üstü ilə yerimək istəmədim. Mənim tərəddüdümü görən polkovnik-leytnant Ohanyan başı ilə işarə etdi ki, qorxmayım. Ayağımı 9-11 yaşlı qız uşağının sinəsinə basıb addımlamağa başladım. Ayaqqabılarım, şalvarım qan içində idi. Beləcə, həmin bataqlığı yüzdən çox meyiti tapdayıb keçdim".

* * *

"Martın 2-də "Qaflan" erməni qrupu (meyitləri yandırmaqla məşğul olan xüsusi dəstə) iki minə yaxın alçaq monqolun (türklərin) cəsədini toplayıb Xocalının ətrafında, ayrı-ayrı yerlərdə yandırdı. Meyitləri gətirən sonuncu yük maşınında başından və qollarından yaralanmış təxminən 10 yaşında bir qız uşağını gördüm. Bir qədər yaxından baxanda gördüm ki, uşaq yavaş-yavaş nəfəs alır. Soyuğa, aclığa və ağır yaralanmasına baxmayaraq, o, hələ sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini heç vaxt yadımdan çıxarmayacam. Sonra Tiqranyan familiyalı bir erməni əsgəri onun qulaqlarından tutub üstlərinə mazut tökülmüş cəsədlərin içərisinə atdı. Bir qədər sonra meyit qalağına od vurub yandırdılar. Tonqaldan o qızcığazın qışqırığı, imdad səsi gəlirdi..."

...Nə bu hərəkətə, nə də onu edənə ad qoymaq mümkün deyil. Dünyanın ən qəddar, ən zalım cəlladının belə ürəyinə rəhm sala biləcək o səhnənin "qəhrəmanı" yalnız erməni ola bilərdi. Tanrı nədən millətimizin qarşısına adam kimi düşmənçilik etməyi bacarmayan vəhşi hayları çıxarıb? Biz bunlara necə dözmüşük? Amma, biz Xocalı soyqırımında üzləşdiyimiz o müsibəti heç düşmənimizə də arzulamırıq...

**XQ**

# Naxçıvanda Xocalı sərgisi

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Xocalı faciəsinin 32-ci ildönümünə həsr olunmuş rəsm sərgisi təşkil olunub. Naxçıvan şəhərində təşkil edilən sərgidə muxtar respublikanın istedadlı gənclərinin soyqırımına həsr olunmuş  65 rəsm əsəri nümayiş etdirilib.**



Faciə qurbanlarının və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov bildirib ki, gənc nəslin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda böyüməsi ölkəmizdə gənclər siyasətinin ana xəttini təşkil edir. Bu istiqamətdə nazirlik tərəfindən davamlı tədbirlər keçirilir, layihələr icra olunur. Xocalı faciəsinə həsr olunmuş sərgi də bu sahədə görülən işlərin davamıdır.

Gənclərdən Aytac Allahyarova Xocalı qurbanlarının qisasının tarixi zəfərimizlə alındığını, Xocalını azad və firavan həyat gözlədiyini vurğulayıb.

**Səbuhi HƏSƏNOV,**
**XQ-nin bölgə müxbiri**



1988-ci ildən başlamış Ermənistan–Azərbaycan münaqişəsinin davamı olaraq, faciəli, tarixdə analoqu çox az olan hadisələrdən biri – Xocalı soyqırımı baş verdi. Xocalı faciəsi qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur.

# Xocalı qurbanlarının xatirəsinə ehtiram

Müasir İnkişaf Birliyinin sədri Mübariz Göyüşlü bildirir ki, Xocalı hadisəsi tarixin ən qəddar qətliamıdır. Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdı. Hər tərəfdə silahlı ermənilər dinc əhalini güllələyib, onlara amansız divan tutublar. Soyuq, qarlı fevral gecəsində nə qədər qız-gəlin əsir düşdü, girov götürüldü. Nə qədər insan erməni silahından yayınıb meşələrə, dağlara qaçsa da, onların çoxu soyuqdan, şaxtadan həlak oldu. Xocalı əhalisinin bir qismi diri-diri yandırıldı, başları kəsildi, üzlərinin dərisi soyuldu, körpə uşaqların gözləri çıxarıldı, süngü ilə hamilə qadınların qarınları yarıldı. Ermənilər, hətta meyitləri də təhqir ediblər. Bu faciəni heç zaman unutmayacağıq.



Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı İntiqam Yaşar da öz növbəsində qeyd etdi ki, Xocalı faciəsindən illər keçməsinə baxmayaraq, xalq o qanlı fevral gününü unutmur və heç zaman unutmayacaq. Bu soyqırımı günahsız və əliyalın xalqa, millətə qarşı ən böyük vəhşilik idi. Həmin gün Azərbaycan xain düşmənlə mübarizə aparırdı. Artıq biz güclü orduya, hərbi gücə malik bir ölkəyik. İkinci Qarabağ müharibəsində qalib gəldik, torpaqlarımızı işğalçılardan təmizlədik. Xocalı bu gün azaddır, orada üçrəngli bayrağımız dalğalanır. Xocalı qurbanlarının ruhu da şaddır. Bundan böyük xoşbəxtlik ola bilməz.



Faciədən 32 il keçməsinə baxmayaraq, Xocalı şahidləri, Azərbaycan xalqı qanlı hadisəni ürəkağrısı ilə xatırlayır. Bakıda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq salınmış "Ana harayı" abidəsinə baş çəkdik. Rayonun yaşlı sakinləri bildirdilər ki, fevral ayının 20-dən sonra abidəni ziyarət etmək üçün hər gün yüzlərlə insan oraya gəlir, qurbanların xatirəsini yad edirlər. Ziyarətimiz zamanı elə biz də bunun şahidi olduq – hökumət adamları, QHT və ictimai sektorun nümayəndələri, məktəb şagirdləri, müəllimlər və digər sahələrin təmsilçiləri abidəni ziyarət edir, gül dəstələri düzür, soyqırımı qurbanların ruhlarına dua edirdilər. Onların arasında Azərbaycanın müxtəlif rayonlarından gəlmiş vətəndaşlarımız da vardı.

S.C.Pişəvəri adına Humanitar Fənlər Gimnaziyasının müəllim-şagird kollektivi ilə söhbət edirik. Şagirdlər müəllimlərindən, valideynlərindən öyrəndikləri bilgiləri bizimlə paylaşırlar. Onlar Xocalı faciəsini heç vaxt unutmayacaqlarını bildirirlər.

Gimnaziyanın müəllimi Zinyət Səmədova dedi ki, ağrılı-acılı, məşəqqətli günlərdən keçmişik. Xocalı faciəsi bizim üçün sözün həqiqi mənasında tarixdir, faciədir, dərsdir. Azərbaycan xalqı Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaq. Xocalı soyqırımı ən qanlı və genişmiqyaslı qətliam olmağına baxmayaraq, bu yeganə hal olmayıb. Məhz bu qırğına kimi Ermənistan tərəfindən Azərbaycanın digər yaşayış məntəqələrində, o cümlədən, Cəmilli, Meşəli, Kərkicahan, Malıbəyli və Quşçular kəndlərində törədilmiş kütləvi qırğınlar Xocalının mühasirəsinə imkan yaratmaq məqsədinə xidmət edib. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Gimnaziyanın digər müəllimi Nailə Qurbanova da Xocalı faciəsi barədə fikirlərini bizimlə bölüşür. O xatırlatdı ki, bu faciəni indiki və gələcək nəsil unutmamalı və bu məqsədlə məktəblərdə bu mövzular geniş danışılmalıdır. O gecənin müdhişliyi tariximizə təkcə xocalılıların deyil, xalqımızın qanlı göz yaşları ilə yazıldı. Lakin Xocalının dərdli-naləli gecəsi barədə nə qədər yazılsa da, yenə də müsibət və dəhşətləri olduğu kimi təsəvvür etmək çətindir.

Müəllimə Sədaqət Cabbarova bildirdi ki, hər il Xocalı soyqırımı günündə məktəbliləri qurbanların xatirə abidəsinə gətirir, onlara baş vermis faciə haqqında ətraflı məlumat verir, bununla da, Ermənistan tərəfindən xalqımıza qarşı törədilmiş dəhşətli faciənin unudulmaması üçün əllərindən gələni edirlər.

"Ana harayı" abidəsini ziyarətə gələnlər arasında bir sıra QHT sədrləri ilə həmsöhbət oluruq.

Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərinə hücum edərək dinc əhaliyə vəhşicəsinə divan tutublar. Şəhərin 613 sakini, o cümlədən 63 uşaq, 106 qadın xüsusi amansızlıqla qətlə yetirilib, 1275 nəfər əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 197-nin taleyi indiyədək məlum deyil. Xocalının 5379 sakini şəhərdən zorakılıqla qovulub, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.

***Rizvan FİKRƏTOĞLU,***
***Elşən AĞALAR (foto)***
***XQ***

# Daşkənddə anım mərasimi




**Azərbaycanın Özbəkistandakı səfirliyinin, bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə Daşkənddəki "Turan" Kitabxana-İnformasiya Mərkəzində Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan "Xocalıda ölən insanlıq" adlı anım tədbiri keçirilib.**

İştirakçılar əvvəlcə Xocalı faciəsi, Qarabağ münaqişəsi ilə bağlı kitab və fotoşəkillərdən ibarət sərgi ilə tanış olublar.

Alim və tərcüməçi Babaxan Şərif Xocalı faciəsi haqqında məlumat verib, soyqırımı son onilliklərdə Türk dünyasının ən böyük faciəsi kimi dəyərləndirib.

Tədbirdə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev deyib ki, 32 il əvvəl - fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalını mühasirəyə alıb, şəhər əhalisi, o cümlədən könüllülər, qocalar, qadınlar, uşaqlar qətlə yetirilib. Səfir əlavə edib ki, britaniyalı jurnalist Tomas de Vaalın "Xocalıda nə baş verib" sualına Ermənistanın sabiq prezidenti, Xocalı canilərindən biri Serj Sarkisyan lovğalıqla belə cavab verib: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, arxayın idilər ki, ermənilər dinc əhaliyə əl qaldırmazlar. Lakin biz bu stereotipi sındırmağı bacardıq. Bax, orada bu baş verib".

AMM-nin direktoru Samir Abbasov deyib ki, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Xocalı soyqırımını rəsmi şəkildə tanıyıb və faciənin XX əsrin dəhşətli cinayətləri olan Xatın, Xirosima, Naqasaki, Sonqmi və Holokost soyqırımları ilə bir sırada dayandığını bəyan edib. Hazırda Pakistan, Meksika, Kolumbiya, Çexiya, Rumıniya, Bosniya və Hersoqovina, İordaniya, Panama, Sudan, Peru, Honduras və digər dövlətlərin parlamentləri və Amerika Birləşmiş Ştatlarının 21 ştatı Xocalı soyqırımını tanıyıb.

"Turan" Kitabxana-İnformasiya Mərkəzinin müdiri Mövluda Amanova, dosent Adxambek Alimbekov, şair Xasiyyət Rüstəm, tarixçi alim Şuxrat Barlas, politologiya üzrə doktor Mahmud Yuldaşev və başqaları Xocalı soyqırımı və erməni təcavüzü barədə düşüncələrini bölüşüb, sonra Xocalı faciəsi ilə bağlı bədii kompozisiya təqdim edilib. Mərasimdə, mərhum şair Oqtay İsmayıllının "Mələklərin soyqırımı" və Özbəkistanın tanınmış şairi Xasiyyət Rüstəmin "Adı Lalə idi o qızın" poemalarının təqdimatı da keçirilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd**

# Qarabağ Universiteti – milli təhsilimizə Zəfər töhfəsi

**Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması işğaldan azad olunmuş ərazilərimizin yenidən bərpası istiqamətində aparılan uğurlu siyasətin çox önəmli addımlarından biridir. 32 il bundan əvvəl erməni faşistlərinin oda qalayıb yer üzündən sildiyi, dinc sakinlərini kütləvi surətdə işgəncələrlə məhv etdiyi Xocalının 10 kilometrliyində bu gün Qarabağ Universitetinin yaradılması soyqırımı qurbanlarının intiqamının alındığının daha bir önəmli göstəricisidir.**



Regionun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın sürətlənməsində də əhəmiyyətli rol oynayacaq. İlkin mərhələdə 1000 nəfərə yaxın tələbənin təhsil alması nəzərdə tutulan Qarabağ Universiteti 2024–2025-ci tədris ilindən fəaliyyətə başlayacaq. Xeyli vaxtdır ki, qloballaşma dövründə universitetlərin formalaşması, ali təhsilin yenidən qurulması və s. kimi məsələlər aktuallığı ilə diqqət mərkəzindədir.

Xocalı faciəsinin 32-ci ildönümü günlərində Qarabağ şəhidlərinin ruhunu sevindirən belə fakt və hadisələrin ictimaiyyətin, eləcə də Azərbaycandan kənarda yaşayan ziyalılarımızın da diqqət mərkəzində olduğunu nəzərə alaraq Türkiyənin 19 Mayıs Universitetinin professoru, texnika elmləri doktoru Azər Qasımzadə ilə həmsöhbət olduq.

***– Azər müəllim, Qarabağ Universitetinin yaradılması bölgənin içtimai-siyasi həyatında, eləcə də təhsil sahəsində yeni və uğurlu addım kimi hamımızı hədsiz sevindirir. Şəhidlərimizin də ruhu şaddır – düşməndən intiqam alınıb, onların nahaq axıdılan qanı yerdə qalmayıb.***

– Bu gün Xocalı soyqırımı qurbanalarının xatirəsinin dərin ehtiramla anıldığı bir məqamda, əlbəttə, xəyanət və fəlakət yuvası olmaqdan qurtulub, yağıdan təmizlənmiş Qarabağda bu adla dünyaya boy göstərən bir ali təhsil ocağının təşkil edilməsi xalqımıza Zəfər töhfəsi olmaqla yanaşı, həm də 30 il Vətən övladlarının axıdılmış qanlarının hədər getmədiyini göstərir. Allah Xocalı qurbanlarına və bütün Qarabağ şəhidlərinə rəhmət eləsin!

Xankəndidə yeni universitetin yaradılması olduqca diqqətəlayiq hadisədir. Açığı mən bunun siyasi tərəfindən geniş danışmaq istəməzdim, çünki bütün reallıqları dəyərləndirən möhtərəm prezident bu sərəncamı ilə bu dəfə də hadisələri qabaqladı və bölgədə modern təhsilin vacibliyini təsdiqlədi. İşğaldan əvvəl Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi fəaliyyət göstərən bu ali təhsil ocağının tarixi zəfərimizdən sonra fəaliyyətə başlaması və Qarabağda ilk universitet kimi qurulmasının böyük siyasi və sosial əhəmiyyəti olduğu kimi, həm də tarixi ədalətin bərpası anlamında da mühüm hadisədir.

Bu məsələ Qarabağın sivil tarixi ilə əlaqədar olduğu qədər də bu günümüzün reallıqları ilə bağlıdır. Əslində keçmişimizə çox qısa bir ekskurs etsək, görərik ki, Qarabağda elmə-təhsilə və mədəniyyətə verilən dəyər həmişə diqqətdə olub. Bu məsələnin önəmli bir tərəfidir. Digər önəmli bir məsələ Qarabağ Universiteti dördüncü sənaye inqilabının tələbləri əsasında qurulacaq. Bu həm də o deməkdir ki, yeni qurulan universitet təkcə fəaliyyətinin olduğu Qarabağın yox, əslində heç Azərbaycanın da deyil, ən azı bögənin, Cənubu Qafqazın və Türk dünyasının fərqli və modern elm və təhsil müəssisəsi olacaq.

***– Bunu nə ilə əsaslandırardınız, Sizin təcürbənizdən gələn məsələdir, yoxsa?...***

– Mən inkar etmək istəməzdim ki, burada elmi fəaliyyətin və təçrübənin rolu unudulmalıdır. Daha dərindən diqqət ediləndə bu tələblər, o cümlədən universitetdə yerli və beynəlxalq təcrübənin tətbiqi imkanları, Qarabağda tarixən mövcud olmuş təhsil ənənələrinin öyrənilməsi və regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksək ixtisaslı kadr tələbatının ödənilməsi dövlət başçısı tərəfindən də ümdə məqsəd kimi qarşıya qoyulub.

Universitetin akademik heyəti üçün, eləcə də təhsilalanlar üçün müasir dövrün tələblərinin həyata keçirilməsi, universitet şəhərciyinin yaradılması, burada bütün xidmətlərin yüksək tələblərə cavab verməsi, elmi-tədqiqat işləri ilə məşğul olan yaradıcı tədqiqatçıların layihələrinin dəstəkləndiyi şəffaf və ədalətli mühitin formalaşdırılması kimi amillər vacibdir. Bu təhsildə yeni sistemin qurulmasıdır. İlk növbədə yeni universitetin tədqiqat yönümlü olması vacibdir. Bu, Nazirlər Kabinetinin təsdiqlədiyi "Qarabağ Universitetinin Nizamnaməsi"ndə də əksini tapır.

Bəzi incəlikləri dərindən bilməsək də, mətbuatda gedənlər, eləcə də sizin qəzetinizdə dərc edilmiş bəzi məqalə və fikirlərlə tanış olduqda da bunları görürük. Xaricdə, o cümlədən Türkiyədə yaşayan alimlərin fikir və mülahizələri ilə tanışlıq da, yeni təhsil sisteminin uğurları da birmənalı olaraq təsdiqləyir ki, Qarabağ Universitetinə peşəkar professor-müəllim heyətinin cəlb edilməsi, modern laboratoriyaların qurulması, elmi tədqiqatların aparılması və onların tətbiqi sahəsindəki uğurlar təkcə universitetin yox, həm də ölkənin və regionun tanıdılmasında əhəmiyyətli olacaq. Bu həm də universitetin istehsalata vəsiqə alan tədqiqatlarından gələn böyük qazanclara açılan yoldur.

Uzağa getməyək, 90-cı illərin əvvəllərində, Azərbaycan yenicə müstəqilliyini qazananda ölkədən xariçə kütləvi bir axın başladı. Bir səbəb alimlərin həyat şəraiti və sosial problemlərin həlli ilə bağlı idisə, daha önəmli bir səbəb elmi nailiyyətlərin tətbiqinə şəraitin olmaması idi. Amma elm adamlarımızın böyük potensialı var idi və buna görə dünyanın ABŞ, Yaponiya, İtaliya və sair kimi inkişaf etmiş ölkələri bu alimlərə çox rahaca qucaq açdılar.

Uzun illərdir ki, çalışdığım qardaş Türkiyədə bu ənənədən faydalanan onlarca alimimiz var. Bilkənt Universitetinin professoru Əmirulla Məmmədov, Egey Universitetinin professorları Afiq Bərdəli, Ürfət Nuriyev, Çanaqqala və Egey Universitetlərinin professoru olmuş Aydın İbrahimov və onlarca başqaları təkcə Türkiyənin yox, həm də bütün Türk dünyasının fəxr etdiyi, çalışdıqları sahəyə dəyərli töhfələr vermiş alimlərdirlər.

Bu siyahını uzatmaq, onların elmi töhfələrindən ətraflı danışmaq da olar. Amma məsələ ondadır ki, bu alimlərin də potensialından, eləcə də onların çoxsaylı yetirmələrinin elmi təcürbələrindən bəhrələnmək lazımdır. İndi Azərbaycanda elm və təhsilin inkişafına dövlətin verdiyi önəm və yaradılan şərait bunu tələb edir.

***– Təcrübəli ali təhsil qurucusu kimi təqdim etdiyiniz bu siyahıda Sizin adınız da birincilər sırasındadır. Yeri gəlmişkən, fəaliyyət və uğurlarınız barəsində danışmağı xahiş edərdim.***

– Xoş və səmimi sözlərinizə görə minnətdarlığımı bildirirəm. Qısaca olaraq bildirim ki, 1994-cü ildə Türkiyə Təhsil Nazirliyinin dəvəti ilə Samsun şəhərindəki 19 Mayıs Universitetinə (OMU) gəlmişəm və o vaxtdan da bu təhsil oçağının professoru olaraq çalışıram. Burada bir ilk olaraq inşaat mühəndisliyi fakültəsini və onun bünövrəsində "Qurğular dinamikası və zəlzələ mühəndisliyi labaratoriyası"nı qurdum, komputer dəstəkli qurğuların sonlu elementlər metodu ilə modellənməsi layihəsinin program teminatının müəllifiyəm.

Bu mövzulara dair 5 kitabım Turkiyə universitetlərində dərs vəsaiti kimi tədris olunur və müxtəlif illərdə yenilənərək 3 dəfə nəşr olunub. Bu sahədə dünya alimlərinin də dəyərləndirdiyi və ilk sırada yer alan dərsliklərdəndir, müxtəlif dünya dillərinə tərcümə olunub. ABŞ-ın riyazi çalışmalar üzrə məşhur Mathvorks mərkəzinin web səhifəsində yayınlanmaqda və isdifadə olunmaqdadır.

***– Azərbaycandan ayrıldığınız 30 ilə yaxın bir müddətdə doğma Vətənlə əlaqələriniz heç vaxt üzülməyib...***

– Düz deyirsiz və məni tanıyanların hər biri də təsdiqləyər ki, Azərbaycanla əlaqələrim heç vaxt kəsilməyib. Həmişə vaxtı ilə çalışdığım Azərbaycan Memarlıq ve İnşaat Universiteti (AzMİU) ilə 19 Mayıs Universiteti arasında elmi əlaqələrin yaradılmasının təşəbbüskarı olmuşam və müəllifi olduğum kompyuter program təminatları və çalışdığım sahə ilə əlaqəli olan kitablarımı AzMIU-ya hədiyyə etmişəm. 2017-ci ildə Bakıda olduğum bir həftə ərzində bu universitetdə ustad dərsləri keçmişəm.

2022-ci ilin aprel ayından isə dəvət ilə rektorun müşaviri, zəlzələ mühəndisliyi elmi-tədqiqat mərkəzinin direktoru və mexanika kafedrasının professoru kimi Azərbaycanın elm və təhsilinə dəstək verməkdəyəm. Bu müddət ərzində Türkiyədə OMU-da olan fəaliyyətimə paralel olaraq AzMİU-da kompyuter dəstəkli "Sonlu elementlər metodu əsaslı qurğuların modellənməsi və analizi labaratoriyası"nı qurmuşam, çalışdığım sahəyə aid iki kitabım Azərbaycan dilinə tərcümə edilərək çap olunub.

AzMİU-da bir beynelxalq konfransın keçirilməsinə və bir beynəlxalq elmi jurnalın nəşrinə nail olmuşam. Adı keçən labaratoriyada istifadə edilən, müəlifliyi mənə aid program təminatı Azərbaycanda istifadə edilən ilk komputer programıdır. Bu il maliyyə dəstəyi almış layihə grantım ilə "Strateji əhəmiyyətli bina və qurğuların monitorinqi və qiymətləndirilməsi laboratoriyası"nı qurmağı planlaşdırıram.

Sualınıza aid olaraq, onu da demək yerinə düşər ki, mən avtobioqrafik təqdimatımdan danışanda bir faktı demədim, 1972-ci ildə Şuşa şəhərindəki Üzeyir Hacıbəyli adına 1 nömrəli orta məktəbi qızıl medal ilə bitirmişəm və buraxılış imtahan komisiyasına Xankəndidən gələn heyət başçılıq edib. Məktəb illərində riyaziyyat üzrə olimpiadalarda Şuşada, Xankəndidə birincilik qazanaraq (təəsüf ki, erməni dilində yazılmış tərifnamələr ilə təltif olunmuşam) Bakıda respublika birinciliyi olimpiadalarına qatılmışam. Nə xoşbəxtik ki, bundan sonra Xankəndidə fərqlənən məktəblilər Azərbaycan dilində yazılmış tarifnamələrlə təltif olunacaqlar. Sonrakı təhsil illərim Bakıda və Moskva İnşaat Mühəndisləri İnstitunda keçmişdir.

Çalışdığım 19 Mayıs Üniversiteti ərazisində "Xocalı soygrımı" abidəsinin ucaldılmasına və eyniadlı parkın salınmasına nail olmuşam. Türkiyə universitetleri içərisində bu bir ilkdir və universitet ərazisində belə bir abidənin ucaldılmasının mənəvi tərəfləri olduqca böyükdür. 30 il ərzində hər il "Xocalı soygrımı"nın ildönümü mərasimində ətrafımdakıların üzünə baxmaqda çətinlik çəkirdim, elə bil hər tərəfdən baxışlar üzümə dikilərək məndən cavab gözləyirdi: "axı nədən bu günə gədər bu qisas yerdə qalıb, oralar niyə işğaldadır" sualı ilə.

İndi bütün xalqımıza, eləcə də xariçdə yaşayan azərbaycanlılara, bizlərə bu qüruru yaşadan Ali Baş Komandana, qazilərmizə, hər gün ruhları şad olsun dediyimiz şəhidlərimizə hər kəsin önündə baş əyərək sonsuz minnətdarlığımı bildirirəm. 2018-ci ildə Azərbaycan Xalq Cumhuriyyətinin qurulması ilə cəmi 23 ay davam edən dövlət müstəqilliyimiz tariximizin ən şərəfli səhifəsidir. Ondan 103 il sonra ilk dəfə suverenliyini qazanan, bütün sərhədlərini öz milli ordusu ilə qoruyan, dövlət dili Azərbaycan dili olan, bütün torpaqlarında üçrəngli Azərbaycan bayrağı qürurla dalğalanan günləri görməyin xöşbəxtliyini yaşamaq qazandığımız ən böyük nemətdir.

***– Sonuncu sual – Qarabağ Universitetində çalışmaq istərdinizmi?***

– Bu təhsil və elm mərkəzinin fəaliyyətinə bacarığı çatan hər kəsin kömək etməsi borc və şərəfdir. Mən də öz köməyimi əsirgəməyəcəyəm. Elə işlər var ki, onları Xankəndidə olmadan da həyata keçirmək olar. Mənim əsas marağım və təcrübəm qurğuların (binalar, körpülər, qüllələr, tunellər və sairə) modellərinin hazırlanması, analizi ve layihələndirilməsi texnologiyaları ilə bağlı olduğu üçün Qarabağ Universitetində bu sahənin böyük önəm daşımasını əhəmiyyətli hesab edirəm.

Gəmi, təyyarə, inşaat mühəndisliyi kimi bütün mühəndislik sahələrində bu qurğuların analizinin, layihələndirilməsinin program təminatının yaradılması, o cümlədən tədrisi, tətbiqi kimi problemlərin vacibliyi davamlı olaraq gündəmə gətirilir. Ona görə bir ilk olaraq, yaxud da bütün sahələrə paralel olaraq bu sahələrin əsaslı bazasının yaradılmasını olduqca gərəkli hesab edirəm. Ümid edirəm ki, Qarabağ Universiteti qalib dövlətimizin yüksək elm və təhsilinin, uğurlu və sürətli inkişafının nümunəsi olaraq dünyanın təhsil məkanında yeni imza olacaqdır.

***– Müsahibə üçün çox sağ olun.***

***Namiq QƏDİMOĞLU***
***XQ***





BEYNƏLXALQ HƏYAT

# Türkiyə və Venesuela ortaq mövqe sərgiləyir

**Dünən Türkiyənin Xarici İşlər naziri Hakan Fidan Venesuela Prezidenti Nikolas Maduro ilə görüşüb.**



Diplomat Fələstinə verdiyi güclü dəstəyə görə Venesuela liderinə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəkkürünü çatdırıb. Eyni zamanda Türkiyə dövlət başçısının Venesuelaya gözlənilən səfəri müzakirə olunub.

Türkiyə diplomatik idarəsinin rəhbəri vurğulayıb ki, Ankara Venesuelaya qarşı birtərəfli sanksiyaları qəbuledilməz hesab edir və bu ölkənin gələcəyini təyin etmək hüququnun yalnız Venesuela xalqına məxsus olması mövqeyindən çıxış edir. Fidan Karakas hökumətinin mübahisələrin dialoq və diplomatiya yolu ilə həlli istiqamətində atdığı addımlardan məmnunluğunu ifadə edib.

Görüş zamanı iki ölkə arasında iqtisadiyyat, ticarət və turizm sahələrində əməkdaşlıq məsələləri də müzakirə edilib. Bildirilib ki, Türkiyə ilə Venesuela arasında ikitərəfli ticarətin həcmini strateji əhəmiyyətli sektorlara investisiyalar cəlb etmək hesabına artırmaq mümkündür. İki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələsinə də toxunulub.

Venesuela Prezidenti isə ölkələr arasında əlaqələrin uğurla inkişaf etməkdə olduğunu bildirib və Türkiyə liderinin Venesuelaya səfərinin Ankara ilə Karakas arasında əməkdaşlığa böyük töhfə verəcəyinə əminliyini ifadə edib: “Prezident Ərdoğanın Fələstin məsələsində mövqeyi bütün dünya üçün nümunədir. Onun Fələstin xalqı naminə cəsarəti və ədaləti müdafiə etməsi təqdirəlayiqdir”, – deyə Maduro qeyd edib.

Onun fikrincə, Fələstin xalqına qarşı törədilən cinayətlərə son qoyulmalı, bütün müsəlman ölkələri, eləcə də Karib hövzəsi və Latın Amerikası dövlətləri Fələstin xalqını qorumaq üçün birləşməlidirlər.

Türkiyə xarici işlər naziri Venesueladan sonra Meksikaya səfər edəcək.

***Ə.PAŞA***
***XQ***

# Navalnının nəşi anasına verilib

**Aleksey Navalnının nəşi anasına verilib. Bu barədə xarici media məlumat yayıb.**



Qeyd edək ki, 47 yaşlı rusiyalı müxalifətçi Aleksey Navalnı fevralın 16-da saxlanılıdığı Yamalo-Nenetsk Muxtar Dairəsinin Karp qəsəbəsindəki cəzaçəkmə koloniyasında ölüb.

Federal Penitensiar Xidmətdən bildirilib ki, o, gəzinti zamanı özünü pis hiss edib, huşunu itirib və hadisə yerinə gələn həkimlər onun öldüyünü təsdiqləyiblər.

***XQ***

# Demokratiyanın tələbi, yoxsa Qərbin mənəvi silahı?

## ABŞ hakimiyyəti Culian Assanjı söz azadlığının gözdağına çevirir




**“İnternet meydana çıxandan söz azadlığı ABŞ-ın xüsusi xidmət orqanları tərəfindən başqa dövlətlərdə etiraz nümayişləri və dövlət çevrilişləri təşkil etmək üçün istifadə edilib”. ABŞ Dövlət Departamentinin keçmiş əməkdaşı Mayk Bençi Amerika jurnalisti Taker Karlsona müsahibəsində belə bir etirafı səsləndirməyə görəsən nə məcbur edib? Vicdan, yoxsa populyarlaşmaq sevdası? Əlbəttə, ABŞ dövlət siyasətinin pərdəarxası məqamlarını yaxşı bilən bir şəxsin bu fikri söyləməsi ilk baxışdan sensasiya olmasa da, məlum həqiqətin təsdiqi üçün kifayət qədər sərt ittihamdır.**

Hazırda internetdə Azadlıq Uğrunda Fondun direktoru vəzifəsində çalışan Mayk Benç bildirib ki, MKİ-nin və ya ABŞ-ın səfirliklərinin, konsulluqlarının rezidentləri Mərkəzi Asiya və ya dünyanın bir çox başqa yerlərində media üzərində hökumətlərin nəzarətindən yayınmaq üçün internetdə azad sözü izləmək və istifadə etmək imkanından yalnız sürət rejimində istifadə edirdilər.

Keçmiş departament əməkdaşı deyir: “İnternetdə söz azadlığının bütün texnologiyaları ilk olaraq bizim kəşfiyyat xidmətlərimiz tərəfindən yaradılıb. VPN-lər, IP ünvanını gizlətmək üçün virtual şəxsi şəbəkələr, malları anonim şəkildə almaq və satmaq üçün “Tor” (qaranlıq şəbəkə-red) və nəhayət, şifrəli mesajlarla danışıq otaqları. Bütün bunlar əvvəlcə DARPA ilə MKİ və Milli Təhlükəsizlik Agentliyi (MTA) arasında birgə layihələr kimi yaradılmışdı ki, Klinton, Buş və ya Obama administrasiyalarına problemlər yaradan hökumətləri devirmək üçün kəşfiyyat xidmətləri tərəfindən dəstəklənən qruplara kömək etsinlər. Bu plan təxminən 1991-ci ildən 2014-cü ilə qədər, internetdə söz azadlığı və onun faydalılığı anlayışında dönüşlər baş verənə qədər sehrli çubuq kimi işlədi”.

Mayk Benç daha sonra yazır: “İnternetdə bu cür söz azadlığının bariz nümunəsi 2011-2012-ci illərdə baş vermiş “Ərəb baharı” oldu. Obama administrasiyasına qarşı çıxan bütün hakimiyyətlər: Misir, Tunis – “Facebook” və “Twitter”-də başlayan inqilablar nəticəsində bir-birinin ardınca devrildilər.

Dövlət Departamenti bu dövrlərdə sosial şəbəkələri onlayn rejimdə saxlaya bilmək üçün virtual media şirkətləri ilə çox sıx əməkdaşlıq edirdilər. Cared Koenin “Google”-dan “Twitter”-ə məşhur telefon zəngini xatırlamamış deyilsiniz. O, İranda müəyyən müxalifət qrupun “Twitter”dən istifadə edib seçkilərdə qalib gələ bilməsi üçün şəbəkəni gündəlik texniki xidmətə görə dayandırmamağı xahiş etmişdi”.

Müsahib haqlı olaraq bu qənaətə gəlir ki, söz azadlığı əvvəlcə təhlükəsizlik orqanlarının dövlət nəzarəti aləti olub. “Bütün bu arxitektura, bütün qeyri-hökumət təşkilatları, texnologiya şirkətləri və təhlükəsizlik xidmətləri arasındakı əlaqə çoxdan söz azadlığını təmin etmək üçün qurulmuşdu. 2014-cü ildə Ukraynada baş verən dövlət çevrilişindən sonra gözlənilməz əks-çevriliş baş verdi və nəticədə Krım və Donbass Ukraynadan ayrıldı.

Onlar, əslində, hərbi cəhətdən sığortalanaraq ayrıldılar, çünki o zaman NATO buna qətiyyən hazır deyildi. Onların ümid bəslədikləri son şans Krımı Rusiyaya birləşdirmək üçün 2014-cü ildə keçirilən səsvermə idi. Krım xalqı öz ağılı ilə və sidq ürəkdən Rusiya Federasiyasına qoşulmağa səs verəndə, bu, NATO-nun gözündə internetdə söz azadlığı anlayışı üçün son damla oldu. NATO-nun apardığı müharibənin fundamental mahiyyəti o anda dəyişdi”.

Bütün bunların, haqqında söz açacağım söz azadlığının üzunmüddətli qurbanına çevrilmiş Culian Assanja, bəlkə də, heç aidiyyatı yoxdur, deyə bilərsiniz. Amma, zənnimcə, söhbət söz azadlığından gedirsə, o zaman bunun Assanja birbaşa aidiyyatı var, çünki o, bilavasitə söz, fikir və ifadə azadlığına sadəlöhvcəsinə inandığı üçün onun qurbanına çevrilib. Biz Assanj kimi bir çox söz azadlığı fədailərinin, Qərbin söz azadlığı doktrinasının arxasında nələrin gizləndiyini bilmədən onun qurbanına çevrilmələrini az görməmişik. Assanj onların ən parlaq nümayəndəsidir



və o səbəbdən, ABŞ neçə illərdir ki, onu öz ölkəsinə ekstradisiya edib sonra ən ağır cəzaya məhkum etməklə, söz azadlığı aşiqlərinə göz dağı etmək istəyir. Elə bir dağ ki, söz azadlığının ABŞ üçün deyil, ona qulaq asmayan dövlətlərə qarşı işlətdiyi bir silah olduğunu hamı birdəfəlik başa düşsün.

Axı, Assanj nə günahın sahibi oldu ki, ABŞ rəsmi dövlət səviyyəsində neçə illərdir onu təqib etmək və cəzalandırmaq iddiasından əl çəkmir?

### Culian Assanj kimdir?

C.Assanj təqib edilənə qədər, “WikiLeaks”-i qurmamışdan bir müddət əvvəl “Mendax” ayaması ilə tanınan çox təcrübəli avstraliyalı haker idi. 16 yaşında olarkən baş verən bir hadisə nəticəsində polis onun anasının evinə soxularaq Assanjın bütün avadanlıqlarını müsadirə edir.

Assanj “International Subversives” qrupunun üzvü kimi bir neçə məşhur haker hücumunda, o cümlədən 1989-cu ildə NASA-da WANK-a müdaxilədə və ABŞ ordusunun istifadə etdiyi onlayn server olan MILNET-in ələ keçirilməsində iştirak edib.

1991-ci ildə Avstraliya polisi Assanjı Kanadanın “Nortel” telekommunikasiya şirkətinin Melburnda yerləşən əsas terminalını sındırdığını aşkar etdikdən sonra onu həbs edib. Assanj 31 haker cinayətində ittiham olunub, lakin yalnlz 24-nü boynuna alıb və 2 min 100 Avstraliya dolları, təxminən 3 min avro cərimə ilə xilas ola bilib.

Bir müddət sonra Assanj və anası hökumət iclaslarını gizli şəkildə qeydə almaq hüququ verən Avstraliyanın informasiya azadlığı haqqında qanunundan istifadə edərək, yerli korrupsiyaya qarşı mübarizə aparmaq məqsədi ilə “Parent Inquiry into Child Protection” adlı fəallar təşkilatı təsis edirlər.

Maraqlıdır, bəs “WikiLeaks” necə yaranıb və onu yaratmaqda məqsəd nə olub? Təbii ki, bu oxucularımız üçün daha maraqlı bir mövzudur.

### “WikiLeaks” nədir?

2006-cı ildə Assanj və bir qrup digər dissident “WikiLeaks”i təsis etdi və artıq elə həmin ilin dekabrında saytda ilk sensasiyalı sızdırılmış məxfi sənəd yer aldı: Somalidən olan siyasətçi tərəfindən imzalanan hökumət rəsmilərinin öldürülməsinə dair xüsusi qərar.

Eyni zamanda Assanj “İdarəçiliyə bənzər qəsd” adlı esse dərc etdi və burada “etik hakerlik“ adlandırdığı işlə məşğul olmasının səbəblərini açıqladı. Assanj yazırdı: "Bir təşkilat nə qədər məxfi və ya ədalətsiz olarsa, məlumat sızması rəhbərlik və planlaşdırma dairələri arasında bir o qədər çox qorxu və paranoya yaradar. Əgər biz bir şey öyrənmişiksə, demək, bu, rejimlərin onları dəyişmək istəməməsindən irəli gəlir. Biz, bizə qədər olanlardan daha geniş düşünməliyik və sələflərimizin edə bilmədiyi kimi hərəkət etməyimizi təmin edən texnoloji dəyişiklikləri tapmalıyıq”.

Növbəti dörd il ərzində “WikiLeaks” anonim mənbələrdən internet senzura siyahıları, sızmalar və məxfi materialları dərc etdi. Onların bəziləri oxucularımız üçün də maraqlı olar. 2007-ci ildə “Quantanamo” bazasındakı əməliyyatlarla bağlı onlayn yayımlanan sənədlər göstərirdi ki, ABŞ ordusu məhbuslardan daha asan məlumat əldə etmək üçün onları iki həftədən çox təcriddə saxlayır. Bu, beynəlxalq qaydalara görə işgəncə hesab edilir.

2009-cu ildə ABŞ-da hakimiyyətin 11 sentyabr hücumlarına necə reaksiya verdiyini göstərmək üçün Pentaqon, FTB və Nyu-York Polis Departamentindən (NYPD) hadisələrlə bağlı 500 mindən çox məxfi məlumat ələ keçirilib. Təbii ki, bunlar “WikiLeaks”də yer alıb. Lakin Assanjın yenidən həbsxanaya düşməsi və indi Britaniya Ali məhkəməsinin qarşısına çıxarılmasına əsas verən sensasiya hələ qarşıda idi.

**(ardı var)**

**İlqar RÜSTƏMOV**
**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 43 (30447) 25 fevral 2024-cü il, bazar

İdman

## İki gimnastımız dünya finalında

**Bakıda batut gimnastikası və tamblinq üzrə Dünya Kuboku uğurla davam edir. Ən son məlumatlara görə, tamblinq üzrə yarışda Azərbaycan millisinin iki üzvü finala vəsiqə qazanıb.**



Bunlar Mixail Malkin və Adil Hacızadədir. Bu növdə yığmanın digər idmançıları - Tofiq Əliyev, gənclərdən Bilal Qurbanov, batut gimnastikası üzrə yarışda isə Selcan Mahmudova yarımfinalda mübarizəni dayandırıblar.

Sonda bildirək ki, Dünya Kuboku yarışları bu gün başa çatır.

## Soydaşımız Gürcüstanda baş məşqçi oldu



**Azərbaycanlı idmançı Gürcüstan Tayboksinq və Kikboksinq Milli Federasiyasının Kvemo Kartli bölgəsi üzrə baş məşqçisi təyin edilib.**

Qurumun prezidenti Qoça Cavaxia bu vəzifəyə "Qaracalar" idman klubunun rəhbəri İsfahan Əliyevi gətirib. Qeyd edək ki, İ.Əliyev 2015-ci ildən federasiyada həm idmançı, həm də məşqçi kimi fəaliyyət göstərir.

*XQ*

# Gəncənin ünlü ünvanı



## Söhbət 60 il əvvəl yaradılmış bənzərsiz "Butulka ev"dən gedir

**– Dayan!..**

**İbrahim çamadanları yerə qoyaraq cibindən iri bir dəsmal çıxarıb alnının tərini sildi və amiranə deyilmiş sözün kimə yönəldiyini ayırd etmək üçün ətrafına boylandı. Vağzalda gəzişən, öz vaqonlarına tələsən sərnişinlərdən başqa bir kimsəni görmədi. Çamadanın birini qaldırıb, o birisini götürmək istəyirdi ki, əlinin üstündə iri bir əl gördü:**

– Sənə dayan demirəm?!

Başının üstündə iri cüssəli, rus milliyyətindən olan bir milis nəfəri dayanmışdı. Gözləri ilə çamadanlara işarə edib "kontrabanda?" deyə soruşdu.

Təbiətən zarafatcıl olan İbrahim gülümsəyərək "nə bildiniz ki, hər ikisi qızılla doludur", deyib "sirli yük"ün ağzını tələsmədən açmağa başladı. Artıq iki milis işçisi də ona yaxınlaşmışdı. Hətta onlardan biri əlindəki qandalı açıb-bağlayır, kinayə dolu nəzərlərlə Tbilisi–Kirovabad qatarının sərnişininə baxırdı.

Soçidən qayıdıb doğma şəhərinə gedən İbrahim Cəfərov çamadanları açaraq içərisindəkiləri dərhal boşaltmağa başladı. Milis işçiləri gözlərinə inanmadılar. Qızıl, daş-qaş, zinət əşyaları gözlədikləri halda, çamadanlardan perrona xırda dəniz daşları tökülürdü.

"Bu da mənim qızıllarım, nə qədər istəyirsiniz götürün", – deyib bərkdən gülən İbrahim onlardan heç bir cavab gözləmədən daşları yerdən yığmağa başladı. Qatarın yola düşməsinə 5 dəqiqə qalırdı...

Bu əhvalatdan 60 ilə yaxın vaxt keçir. Dəmiryol mühəndisi olan İbrahim 30 ildən artıqdır ki, yoxdur bu həyatda. Amma o daşlar durur, yaratdığı "Butulka ev"in divarlarını bəzəyir. 60 ildə dünyada yeganə olan bu qəribə evə tamaşa edənlərin sayı, bəlkə də, 60 milyonu keçib.

...İbrahimlə qardaşı Yusif cəbhəyə bir yerdə yollanmışdılar. Məşhur 416-cı Taqanroq diviziyasının tərkibində cəbhəboyu birgə irəliləmişdilər. Amma o qanlı-qadalı günlərin birində Yusifi cəbhənin başqa bir istiqamətinə apardılar və elə o gedən getdi...

İbrahim qayıtdı, Yusifdən isə xəbər-ətər çıxmadı. O, qardaşını çox gözlədi. Müharibədən 15 ildən çox vaxt keçsə də, ümidini üzmür, həm də qardaşının adını əbədiləşdirmək haqqında düşünürdü.

Bir dəfə dostları ilə Soçiyə getmişdi. Neçə gün gəzib dolaşdılar, istirahət etdilər. İbrahimin diqqətini Qara dənizin sahillərində, çimərliklərdə olan kiçik daşlar cəlb elədi. O, xeyli vaxt idi bu cür daşlar axtarırdı. Gəncəçayda belə daşlara rast gəlməmişdi. Gələcək evi beynində canlandıran İbrahim bu daşlarla Yusifin, o zamanlar heç kimin cəsarət etmədiyi Gəncə adını bu qeyri-adi evin divarlarına "yazmaq" istəyirdi. Sonralar İbrahim bir neçə dəfə Soçiyə getdi və həmin daşlardan kifayət qədər yığıb gətirdi.

Elə bilirdi ki, belə bir qeyri-adi ev tikməklə Yusifin adını əbədiləşdirəcək. Evin bütün mozaika, şəbəkə işlərini, butulkaların düzülüşünü öz əlləri ilə



qurub yaratdı. Bir rəssam dostu da evin ön divar fasadında İbrahimlə Yusifin yağlı boya ilə şəkillərini çəkdi. Binanın bir neçə yerində "Gəncə" yazdı və tarix qoydu: "1967". Arxa divarda isə "Naməlum əsgərə" sözünü yazmaqla qardaşının timsalında itkin düşən bütün hərbçilərə ehtiramını bildirdi. Evin 2-ci mərtəbəsinə İbrahim Cəfərov orijinal tərtibat verdi, hörgü üçün şampan butulkasından tutmuş kiçik ölçülü dərman şüşələrinə qədər 50 min butulkadan istifadə etdi. Elə tikilinin özəlliyi də bundadır. Üstəlik, yonulmuş daşlardan məhəccərli balkon hörüb, güldanlar düzəldib. Evin girəcəyində qədim Gəncənin qala divarlarının maketini hazırlayıb. Bünövrə divarında tarixi şəxsiyyətlərin portretləri, hərbi geyimdə ümumiləşmiş əsgər obrazı var və bu sözlər yazılıb: "1941–45-ci illərdə həlak olanların xatirəsinə. 416-cı diviziyaya əbədi şöhrət. Taqanroq–Berlin. İbrahimdən hədiyyə".

İbrahim Cəfərov sağlığında bu evə baxmağa gələn və onun önündə şəkil çəkdirən saysız-hesabsız turistlərin fotoşəklini çəkərək, bir neçə albom düzəltmişdi. Bir dəfə Rusiyadan gələn qonaqlarla bərabər mən də "Butulka ev"ə getmişdim. İbrahim həmişəki kimi yenə həvəslə qonaqlara evin tarixi haqqında məlumat verərkən turistlərdən biri qayıtdı ki, "qardaşınız, yəqin ki, həlak olub..."

İbrahim sərt şəkildə onun sözünü ağzında qoydu, "bəs bu evi nədən ötrü belə tikmişəm? Tikmişəm ki, sənin kimi adamlar bura gəlsin, onu yad eləsin. Qardaşım burdadır, o, ölməyib, diqqətlə qulaq as, divarlardan da səs gəlir..."

Hamı donub qalmışdı. Qadınlar göz yaşlarını saxlaya bilmirdilər. Kşilər gözlərini bir nöqtəyə zilləmişdilər. Hətta biri qayıtdı ki, "sözün bitdiyi yer..."

1992-ci ildə dünyasını dəyişən İbrahimdən sonra oğlu da dünyasını dəyişib. Hazırda "Butulka ev"də iki nəvəsi, onların ailələri yaşayır. İndi buranı ziyarət edənlərin fotolarını nəvələri çəkir.

İbrahim Cəfərov olduqca gözü-könlü tox, təvazökar, mərd insan olub, kimdənsə kömək, yardım istəməyib, heç nə ummayıb. 80-ci illərin əvvəllərində Həsən Həsənov şəhər partiya komitəsinin 1-ci katibi olan vaxt ona əlavə ev təklif etsə də, istəməyib. Bax, beləcə, qardaşının müharibədən sağ gələcəyini gözləyə-gözləyə köçüb bu dünyadan…



...Gəncənin Qənbər Hüseynli ilə Hüseyn Cavid küçələrinin kəsişməsində 60 ilə yaxındır ki, dünyanın hər yerindən gələn qonaqları heyran edən bu abidə-ev şəxsi mülk də olsa, bizcə, Mədəniyyət Nazirliyinin nəzarətinə götürülməli, qeydiyyata alınmalıdır. Yeri gəldikdə, onun cari təmir işlərinə də köməklik göstərilməlidir. Çünki turist marşrutuna salınan "Butulka ev" bir tarixdir, insan taleyidir, II Dünya müharibəsinin vurduğu yaraların nişanəsidir, qardaşın qardaşa məhəbbət rəmzidir, bir azərbaycançılıq nümunəsidir,

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

Kainat

## Günəşdən 500 trilyon dəfə parlaq obyekt



**Avstraliya və Çilidən olan bir qrup elm adamı Çilidəki Atakama səhrasında teleskopların köməyi ilə apardıqları müşahidələr nəticəsində "J0529-4351" adlı son dərəcə parlaq və kütləvi kvazar haqqında təəccüblü təfərrüatlar tapıblar.**

Astronomlar araşdırmalardan sonra belə qənaətə gəliblər ki, Günəşdən 500 trilyon dəfə daha parlaq olan bu kvazar "kainatın ən parlaq obyekti" ola bilər.

Sözügedən kvazarın Yerdən 12 milyard işıq ili uzaqda yerləşdiyini qeyd edən astronomlar cismin mərkəzindəki qara dəliyin kütləsinin Günəşinkindən 17-19 milyard dəfə böyük olduğunu da müəyyən ediblər.

*XQ*

Sağlamlıq

## Çörək – pəhrizə nə gərək



**Gözəl görünüş, yaraşıqlı bədən üçün özünü çörəkdən məhrum edənlər indiyədək səhv ediblər. Əslində çörək pəhriz üçün faydalı imiş.**

Müasir dietoloqlar uzun illərdir qadağaya düşən çörəyə "amnistiya" veriblər. Alimlər çörəyi həyati vacib vitamin və minerallarla zəngin hesab edirlər. Pəhrizdə olanlar qoz, tumlar, toxumlar və quru meyvələr əlavə olunmuş çörək yeyə bilərlər. Amma onlar deyilənlərin əksinə olaraq, bildiriblər ki, ağ undan çörək də orqanizmə fayda verir. O, kalsium mənbəyidir.

"The Carb Diet" kitabının müəllifləri isə daha da irəli gedərək, çörəyin kaloriləri yandırdığını bildiriblər. "Bu necə olur?" – sualına onlar belə cavab veriblər ki, çörək yedikdən sonra insan uzun müddət tox olur, yemək istəmir. Buna səbəb çörəkdə olan dayanıqlı nişastadır.

Tədqiqatlar göstərib ki, nişasta iştahı kəsir, qanda şəkərin səviyyəsini saxlayır, metobolizmi sürətləndirir.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava

## Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 25-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 1-3°, gündüz 3-5° isti olacaq. Atmosfer təzyiqi 775 mm civə sütunundan 778 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-4° , gündüz 5-8° isti, dağlarda gecə 3-8°, yüksək dağlıq ərazilərdə 11-16° , gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və kollektivi iş yoldaşları İradə Hacıyevaya bacısı

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Səbuhi Məmmədova əzizi

**ASİF MƏMMƏDOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3805
SİFARİŞ 407
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00